**EVDƏ QAL, SAĞLAM QAL!**

**PREZİDENTƏ YAZIRLAR: "Sizin rəhbərliyinizlə Azərbaycan daha güclü və qüdrətli olacaq!"**



Bax 5

**"Washington Times" qəzeti Azərbaycanda aparılan islahatlara və Ermənistan-Azərbaycan münaqişəsinə dair məqalə yayıb**




Bax 7



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 086 (6051) 21 may 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.




Bax 2

# Bütün varlığı ilə xalqına xidmət edən LİDER!

*Prezident İlham Əliyev: "Bəlkə də dünyada öz vətəndaşına bu qədər qayğı və diqqət göstərən ikinci ölkə yoxdur"*

## Əli Əhmədov: "Azərbaycanda "beşinci kolon" funksiyasını AXCP və "milli şura" adlanan qurum icra edir"



*Baş nazirin müavini, YAP Sədrinin müavini - icra katibi Əli Əhmədov özünün rəsmi facebook səhifəsində yayımladığı ""Beşinci kolon"un təxribat niyyətləri" sərlövhəli məqaləsinin aktuallığını nəzərə alaraq, onu oxucularımızın diqqətinə təqdim edirik:*

Bax 4

## Ronaldo 8 milyona torpaq aldı




"Yuventus"un futbolçusu Kriştiano Ronaldo Vətəni Portuqaliyada yeni torpaq sahəsi alıb. Qol.az "Vidas.pt"a istinadən xəbər verir ki, 35 yaşlı hücumçu Lissabon şəhərinin Riveyra bölgəsindəki əraziyə 8 milyon avro ödəyib.

Bax 16

## "İRATES": "Heç kim Nikolla bir yerdə batmaq istəmir"

Bax 4



Ermənistanda dərc edilən "İrates" qəzeti yazır ki, hakimiyyət daxilindəki sorosçular Paşinyandan narazıdırlar və bunu gizlətmirlər. SİA adıçəkilən nəşrə istinadən xəbər verir ki, sonuncu hələ inqilab vaxtı əldə edilən razılaşmalara əməl etmir, onların (sorosçuların) irəliləmələrinə məhdudiyyətlər qoyur.

## "Ölkə üzrə 31 DOST mərkəzinin yaradılması təmin ediləcək"



Bax 10

"Azərbaycan Respublikası Prezidentinin hər zaman bəyan etdiyi kimi ölkədə həyata keçirilən siyasətin mərkəzində vətəndaş amili dayanır. Bu mənada ölkə başçısı tərəfindən ölkəmizdə sosial sahəyə daim diqqət göstərilir. 2018-ci ildən başlayaraq Prezident...

## "DOST Mərkəzi, ASAN Xidmət kimi sosial layihələr dünyada brend olaraq dəstəklənir"

"Növbəti DOST mərkəzinin açılışı vətəndaşa xidmət reallığı ilə yanaşı, həm də özündə intellektual uğuru da bariz şəkildə əks etidir".SİA xəbər verir ki, bu fikirləri Olaylar.az-a "SƏS" qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın...



Bax 9

**Koronavirusa görə işçiləri işdən çıxaranlar cəzalandırılacaq**



Bax 10

**Qabil Məmmədov adlı terror(çuy)a son!**



Bax 13

**Əli Kərimli Cəmil Həsənlinin "dalından" necə dəydi?**



Bax 14

# Bütün varlığı ilə xalqına xidmət edən LİDER!

*Prezident İlham Əliyev: “Bəlkə də dünyada öz vətəndaşına bu qədər qayğı və diqqət göstərən ikinci ölkə yoxdur”*



***Bəli, dövlət başçısının bu cavabı Azərbaycan dövlətinin sosial siyasətinin fəlsəfəsi, iqtisadi inkişafın nəticələrinin əhalinin rifah halının yüksəldilməsinə yönəldilən real sübutudur. Bu prinsip hər gün daha geniş şəkildə davam etdirilir. Xüsusən ötən illərdə dünyada hökm sürən maliyyə böhranı, onun ardıncı dünyanı ağuşuna alan koronavirusla mübarizədə Azərbaycan Prezidenti İlham Əliyev xalqının və dövlətinin ona güvəni qarşısında mətinliklə, əzmkarlıqla dayanaraq, “göydən gələn gözə görünməz bəla”dan - koronavirus (COVID-19) pandemiyasından xilas üçün ön sırada mübarizə aparır, “soyuq müharibə”nin gətirdiyi fəsadlardan az zərərlə çıxmaq üçün yollar arayır. Bütün bunlar xalqın gözləri qarşısında baş verir. Dövlət başçısı və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın xalqa müraciətlərinin cavabsız qalmamasının isə xalq-hakimiyyət birliyinin növbəti dəfə təcəssümü olduğunu dünya gördü. Bəli bu aksiomadır. Çünki Azərbaycan Prezidenti İlham Əliyevin siyasətinin mərkəzində Azərbaycan xalqının sağlamlığı və sosial rifahı dayanır.***

### Azərbaycan - dünyaya nümunə göstərilən inkişaf modeli

Gəlin müqayisə aparaq ki, hansı dövlətin başçısı öz xalqına bu qədər yaxın və səmimi olub? Bu gün dünyanın istər aparıcı, istərsə də qeyri-aparıcı dövlətlərində baş verən çoxsaylı siyasi kataklizmlər, böhranlar, baş verən və artan narazılıqlar fonunda Azərbaycanda yürüdülən siyasət əsrarəngiz model olaraq təqdim olunmaqdadır. Bu gün dövlətimizin başçısının rəhbərliyi ilə ölkəmizdə dünyaya nümunə göstərilən bir inkişaf modeli formalaşıb. Məhz bu müsbət tendensiyaların mövcudluğu səbəbindən iqtisadi və siyasi sabitliyimiz davamlıdır. Bu amilləri yüksək qiymətləndirən Prezident İlham Əliyev bildirir ki, dünyanı bürüyən böhranlardan asılı olmayaraq Azərbaycanın inkişafı və ölkədəki ictimai-siyasi sabitlik bizim böyük sərvətimizdir.

Ən önəmli məqam isə ondan ibarətdir ki, Azərbaycan dövlətinin həyata keçirdiyi sosial siyasətin mərkəzində Azərbaycan vətəndaşının firavan yaşam tərzi dayanır.

Məhz Prezident İlham Əliyevin rəhbərliyi ilə ötən dövr ərzində əhalinin sosial rifahının yüksəldilməsi və sosial infrastrukturun ən müasir standartlara uyğun yenidən qurulması istiqamətində məqsədyönlü siyasət həyata keçirilmiş və mühüm uğurlar əldə olunmuşdur. Xüsusən sosial məsələlərin həlli ilə bağlı ölkədə çoxsaylı Dövlət proqramları, böyük layihələr həyata keçirilmiş, regionların sosial-iqtisadi inkişafına dair dörd Dövlət Proqramları, həmin sənədlərə çoxsaylı əlavələr qəbul olunmuş və icra edilmişdir. Çox önəmli faktdır ki, hər il ölkəmizin başçısının imzaladığı fərman və sərəncamların 65 faizi məhz sosialyönümlüdür.

Əslində, dövlət başçımız bu siyasətini 17 ildir ki, davam etdirir, ancaq hazırkı məqamda həmin siyasət daha aşkar görünməkdədir. Yəni İlham Əliyev deyərkən, xalq yalnız dövlət başçısı deyil, həm də bir qayğıkeş şəxsiyyət, böyüklük rəmzi, ağsaqqala, ağbirçəyə sonsuz hörmət bəsləyən Vətən övladı görür. Və həmişə də bu qayğı görünməkdədir. Hələ 2016-cı ilin Aprel zəfəri zamanı Azərbaycan xalqı bir yumruq kimi birləşib, cəbhədə yağı düşmənə layiqli cavab verən, işğal altındakı torpaqlarımızın bir hissəsini azad edən Orduya möhtəşəm dəstəyini göstərdi. Bu dəstək Ali Baş Komandanımıza verilən dəstək idi və hər kəs veriləcək əmrə tabe olduğunu nümayiş etdirirdi. Bu dəstək dağı belə yerindən oynadan xalqın dəstəyi, birliyi idi! Bu dəstəyin, xalqın dövlətinə olan etibar və inamının sübutudur.

### Prezidentin sosial islahatlar paketi vətəndaş rifahı naminə atılan inqilabi addımdır

Dəfələrlə Azərbaycanın sosial sahəyə çox böyük diqqət göstərən ölkə olduğunu qeyd edən Prezident İlham Əliyev demişdir: “Biz ölkəmizdə bazar iqtisadiyyatı prinsiplərini sosial ədalət prinsipləri ilə birləşdirə bildik və hesab edirəm ki, Azərbaycanın uğurlu inkişafı məhz buna söykənir”. Bunun nəticəsidir ki, Azərbaycan hazırda güclü iqtisadiyyata, güclü orduya, dünya birliyində güclü mövqeyə sahib olmaqla yanaşı, güclü sosial siyasətə malik olan bir ölkəyə çevrilib. Aparılan siyasətin mərkəzində isə Azərbaycan vətəndaşı, vətəndaş rifahının təminatı prinsipi dayanır və bu prinsip iqtisadi dividendlərin ilk növbədə əhalinin rifahına yönəldilməsi, əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində ardıcıl addımların atılması ilə təsdiqini tapır.

## Rəsmi xronika

Prezident İlham Əliyev Azərbaycan Respublikasının 1999-cu il 8 dekabr tarixli 773-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə”də dəyişikliyi təsdiq edib.

* * *

Prezident İlham Əliyev “Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlər arasında vergi inzibatçılığının həyata keçirilməsi üçün elektron formada məlumat mübadiləsi haqqında” Protokolun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanununu imzalayıb.

* * *

Prezident İlham Əliyev “Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 yanvar tarixli 724 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

### “DOST mərkəzlərinin fəaliyyətə başlaması sosial sahədə görülən işlərin, aparılan islahatların əyani təzahürüdür”

Məlum olduğu kimi, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakının Nizami rayonunda yerləşən 3 saylı DOST mərkəzinin açılışında iştirak edərək, 2020-ci ilin əvvəlindən indiyədək sosial sahədə əldə olunan uğurlar, pandemiya ilə əlaqədar məşğulluğa və sosial rifaha dəstək tədbirləri, elektron sistemlər üzərindən göstərilən proaktiv xidmətlər, şəhid ailələrinin və müharibə əlillərinin mənzil və avtomobil təminatı, günərzi qayğı, icma əsaslı sosial reabilitasiya və yardım mərkəzləri, habelə DOST agentliyinin regional və beynəlxalq səviyyədə əldə etdiyi nailiyyətlər barədə də məlumatlar verildi.

Yeni istifadəyə verilən DOST mərkəzi ilə tanışlıqdan sonra Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibəsidə də bildirib ki, Azərbaycan bu sahədə də liderlik göstərir: “Azərbaycan bu sahədə də liderlik göstərir və DOST mərkəzlərinin fəaliyyətə başlaması sosial sahədə görülən işlərin, aparılan islahatların əyani təzahürüdür. Artıq üçüncü mərkəz açılır və ilk açılan iki mərkəzin fəaliyyəti də çox uğurludur. Vətəndaşların bəyənmə əmsalı 96 faizə çatıbdır. Burada göstərilən xidmətlər, əlbəttə, sosial təminat sahəsində böyük bir yenilikdir və təsadüfi deyil ki, artıq bir neçə ölkə bu təcrübə ilə bağlı bizə müraciət edib və Azərbaycan öz təcrübəsini bölüşməyə hazırdır.

Bütövlükdə 30-dan çox mərkəzin fəaliyyətə başlaması nəzərdə tutulur. Ümid edirəm ki, yaxın bir neçə il ərzində Bakıda və bütün ölkə üzrə DOST mərkəzləri fəaliyyətə başlayacaq. Eyni zamanda, burada iş yerləri yaradılır. Mənə verilən məlumata görə, bu DOST mərkəzində 130-dan çox iş yeri yaradılır və o cümlədən könüllülər də işlərə cəlb olunur. Bütövlükdə 130-dan çox xidmətin göstərilməsi demək olar ki, sosial sahənin bütün xidmətlərini ehtiva edir. Beləliklə, bu mərkəzlərin fəaliyyəti həm insanlara rahatlıq verəcək, eyni zamanda, şəffaflıq istiqamətində önəmli addım artıq özünü doğruldub”.

Ardı Səh. 3

# Bütün varlığı ilə xalqına xidmət edən LİDER!

*Prezident İlham Əliyev: “Bəlkə də dünyada öz vətəndaşına bu qədər qayğı və diqqət göstərən ikinci ölkə yoxdur”*






### “Sosial sahə daim prioritet sahə olub”

Dövlət başçısı çıxışı zamanı son illərdə Azərbaycanda əhalinin sosial təminatı ilə bağlı dünyanın çox nadir ölkələrində rast gəlinən kompleks tədbirlərin həyata keçirildiyini bildirərərkdeyib ki, sosial sahə daima prioritet sahə olub: “Sosial sahə daim prioritet sahə olub və mənim əvvəlki illərdə də çıxışlarımda daim bu məsələyə böyük diqqət yetirilib. Xüsusilə son müddət ərzində - keçən il və bu il sosial sahə daha da böyük prioritet kimi gündəlikdə mövcuddur. Təsadüfi deyil ki, ötən il müstəqillik dövründə ən geniş sosial paket təqdim olundu və uğurla icra edildi. Bu sosial paketin əhatə dairəsi çox geniş idi - 4 milyon 200 min insan dövlət tərəfindən sosial paketlə təmin edildi. Bunun içərisində minimum əməkhaqqının təxminən 2 dəfə, minimum pensiyanın 70 faizdən çox qaldırılması məsələləri var idi. Minimum pensiyanın alıcılıq qabiliyyətinə görə bu gün Azərbaycan MDB məkanında lider dövlətdir. Müavinətlər qaldırıldı - bəzi müavinətlər 50 faiz, bəzi müavinətlər 2 dəfə. Problemli kreditlərlə bağlı məsələ öz həllini tapdı. Yəni, biz bu məqsədlər üçün milyardlarla manat ayırdıq və dediyim kimi, 4,2 milyon insanın güzəranı əhəmiyyətli dərəcədə yaxşılaşdırıldı”.

Dövlət başçısı bu ilin əvvəlindən bu meyillərin daha da gücləndiyini deyərək bildirib ki, bu sahədə bu il görülən işlər keçən il görülmüş işlərin məntiqi davamıdır: “Bu ilin xüsusiyyəti ondadır ki, biz indi pandemiya dövründə yaşayırıq və pandemiyaya bizim cavabımız çoxşaxəli olmuşdur. O cümlədən sosial təminatla bağlı çox ciddi, operativ və məqsədə hesablanmış addımlar atılmışdır. Artıq sirr deyil ki, dövlət sektorunda fəaliyyət göstərən 900 min insanın əməkhaqqı tam ödənildi, özəl sektorda təxminən 700 min insanın əməkhaqqının əhəmiyyətli hissəsi dövlət tərəfindən ödənildi. Nəzərə alsaq ki, bu sektorda fəaliyyət göstərən insanlar işsiz qalmışdılar, işsiz vətəndaşların, aztəminatlı təbəqənin, o cümlədən qeyri-formal məşğulluqda fəaliyyət göstərən insanların sosial təminatı təşkil edildi, hər birinə 190 manat vəsait ayrıldı. Bu kateqoriyadan olan insanların sayı az deyil, 600 mindir. Bu işlərin hamısı əlbəttə ki, böyük maliyyə resursları tələb edir. Buna ünvanlı sosial yardım proqramını əlavə etsək, bu proqramla əhatə olunan insanların sayı kəskin artır. Hazırda 80 min ailə bu proqramla əhatə olunur və orta hesabla hər bir ailəyə hər ay 220 manatdan çox vəsait ödənilir. Eyni zamanda, ödənişli ictimai iş yerlərinin - 90 min iş yerinin açılması nəzərdə tutulur. Özünüməşğulluq proqramında 12 min insan əhatə olunur”.

Prezident çıxışı zamanı bir daha vurğulayıb ki, bu sahəyə göstərilən diqqət və əməli-praktiki addımlar bir daha bizim siyasətimizin mahiyyətini göstərir: “Mən ilin əvvəlində və pandemiyanın artıq alovlanan dövründə demişəm ki, bir dənə də olsun sosial proqram ixtisar edilməyəcək və biz bunu təmin edirik. Eyni zamanda, sosial infrastruktur layihələrinin heç biri ixtisar olunmayıb. Ona görə bu sahəyə göstərilən diqqət və əməli-praktiki addımlar bir daha bizim siyasətimizin mahiyyətini göstərir. Bir də onu göstərir ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır”.

Bir sözlə, bütün bunlar bir daha təsdiq edir ki, Azərbaycan dövləti daim öz vətəndaşına qayğı ilə yanaşır, onun rifahının yüksəldilməsini, sosial problemlərinin həllini prioritet vəzifə kimi görür və bu istiqamətdə məqsədyönlü siyasət həyata keçirir.

**Rəfiqə Kamalqızı**

## İspaniya Azərbaycana təşəkkür edib



Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarovun İspaniya Krallığının Xarici İşlər naziri Arança Qonzalez Laya ilə telefon söhbəti baş tutub.

XİN-dən Trend-ə verilən məlumata görə, İspaniya Xarici İşlər naziri Arança Qonzalez Laya mövcud qlobal pandemiya ilə mübarizə çərçivəsində birgə səylərin və həmrəyliyin əhəmiyyətini vurğulayıb və Azərbaycanın Heydər Əliyev Mərkəzinin binasının üzərində İspaniya bayrağının işıqlandırılması ilə verdiyi həmrəylik ismarışına görə öz təşəkkürünü bildirib. Xanım nazir, həmçinin qlobal sağlamlıq böhranına qarşı birgə mübarizəyə dəstək ifadə edən məktubuna görə Azərbaycanlı həmkarına təşəkkürünü ifadə edib.

Nazirlər iki ölkə arasında siyasi əlaqələrin yüksək səviyyədə inkişaf etdiyini qeyd ediblər. Ölkələrin beynəlxalq hüququn norma və prinsiplərinə, o cümlədən BMT Nizamnaməsi və Helsinki Yekun Aktında əks olunmuş dövlətlərin suverenliyi, müstəqilliyi və ərazi bütövlüyünə hörmət, sərhədlərin toxunulmazlığı prinsiplərinə uyğun olaraq BMT çərçivəsində əməkdaşlığını vurğulayıblar. İki ölkə arasında strateji tərəfdaşlığa dair bəyannamənin yaxın gələcəkdə imzalanması və bu xüsusda yüksək səviyyəli səfərlərin əhəmiyyəti qeyd olunub. Tərəflər, habelə ölkələr arasındakı müqavilə hüquq bazasının möhkəmləndirilməsi məsələlərini müzakirə ediblər.

Nazirlər, iki ölkə arasında iqtisadi və enerji sahələrində əməkdaşlığın gücləndirilməsi, habelə mədəni əlaqələrin genişləndirilməsi məsələləri ətrafında fikir mübadiləsi aparıblar.

Tərəflər, pandemiyadan sonra qarşılıqlı səfərlərin həyata keçirilməsi üçün dəvətlərini səsləndiriblər.

## “Azərbaycan, ordunun gücünü ona görə artırır ki,..”

“İşğalçı ölkə görməli və anlamalıdır ki, Azərbaycan işğalla barışmayacaq”. Bunu SİA-ya politoloq Elxan Şahinoğlu deyib.



Politoloqun sözlərinə görə, Azərbaycan, ordunun gücünü ona görə artırır ki, sülh danışıqları nəticə verməyəcəyi halda, istənilən anda torpaqlarımızı işğaldan müharibə yolu ilə azad edə bilək: “İşğalçı Ermənistan tərəfi bunu anlamalıdır. Azərbaycan silah və texnikanın alınmasına hər il milyardlarla dollar xərcləyir. Ermənistan bununla heç bir zaman ayaqlaşa bilməz. Düşmən tərəfi də bundan qorxur və çəkinir. Hərbi təlimlərin keçirilməsinin digər əhəmiyyəti ondan ibarətdir ki, biz aldığımız hərbi texnika və sursatı sınaqdan keçiririk. Bunu da düşmən görür və qiymətləndirməyə çalışır ki, buna qarşı necə cavab versin. Amma cavab verməyə gücü çatmır. Ermənistan son anda Rusiyadan silah və hərbi texnika dilənir. Lakin Azərbaycan müxtəlif dövlətlərdən silahı, qazandığı pulla əldə edir. Həmçinin bu hərbi təlimlər müxtəlif istiqamətlərdə həyata keçirilir. Bununla da biz işğalçıya göstəririk ki, istənilən istiqamətdə, istənilən hərbi əməliyyatı həyata keçirməyə, torpaqlarımızı müharibə yolu ilə azad etməyə hazırıq”.

# Əli Əhmədov: "Azərbaycanda "beşinci kolon" funksiyasını AXCP və "milli şura" adlanan qurum icra edir"



***Baş nazirin müavini. YAP Sədrinin müavini - icra katibi Əli Əhmədov özününrəsmi facebook səhifəsində yayımladığı ""Beşinci kolon"un təxribat niyyətləri" sərlövhəli məqaləsinin aktuallığını nəzərə alaraq, onu oxucularımızın diqqətinə təqdim edirik:***

- Əgər ölkədə "beşinci kolon", varsa ondan yaxşı heç nə gözləmə. Yaxın tarixin və yaşadığımız dövrün acı təcrübəsi məhz bundan ibarətdir. Heç bir yerdə və heç bir zaman "beşinci kolon" dekorasiya rolunu oynamayıb və oynamır. Onun yaranmasına və saxlanmasına qoyulan böyük xərclərin qarşılığı beşinci kolonun satışa çıxarmağa vəd verdiyi milli maraqlardır. Elə buna görə də haqqında söhbət etdiyimiz üzdəniraq qruplaşma mövcudluğundan tutmuş sonuncu addımına qədər antimilli mahiyyət kəsb edir. Antimillilik onun mövcudluq forması və həyat fəlsəfəsidir.

"Beşinci kolon" müxtəlif adlar altında və formalarda maskalanır. Onun ən geniş yayılmış konspirasiya forması siyasi partiyanın çətir altında fəaliyyət göstərməsidir. Partiyanın adına "xalq", "millət", "cəbhə" kimi əlavələrin edilməsi müasir konspirasiyanın vacib elementlərindən sayılır.

"Beşinci kolon" Azərbaycanda yeni hadisə deyil. Müəyyən sükunətdən və konspirasiyadan sonra üzə çıxmaq, açıq fəaliyyətə keçmək tapşırıqları aldığı sezilməkdədir. İllər boyu formal da olsa, istifadə etdikləri siyasi müxalifət imicinə görünür daha ehtiyac duymurlar. "Beşinci kolon"un siyasi müxalifət mərhələsindən birbaşa açıq təxibatçı qruplaşma mərhələsinə keçdiyi aydın şəkildə müşahidə olunur.

Hər şeyi öz adı ilə çağırmağın vaxtı çatıb. Azərbaycanda "beşinci kolon" funksiyasını Azərbaycan Xalq Cəbhəsi Partiyası və "milli şura" adlanan qurumun icra etdiyi hamıya bəlli olan həqiqətdir. Hər iki qruplaşmanın adında xalq və milli sözlərinin olması yəqin ki, diqqətdən yayınmadı. Maskalanmaq üçün bu iki sözdən daha uğurlusunu düşünmək çətindir. Ancaq hər kəs gözəl bilir ki, birincini xalqla, ikincini isə millətlə bağlayan heç nə yoxdur. Hər iki ifadə yuxarıda adıçəkilən qruplaşmaların antimilli mahiyyətini pərdələmək məqsədinə xidmət göstərir. Təqdim olunan yanaşma kiməsə sərt görünə bilər. Lakin maraqlı xarici qüvvələrin təklif etdiyi xidmətləri məmnuniyyətlə qəbul etmək də daxil olmaqla bütün gücünü qoyub Azərbaycanın nüfuzuna kölgə salmağa, adını ləkələməyə çalışanlara nə ad vermək olar? Hansı ölkənin müxalifəti, əgər o "beşinci kolon" deyilsə, öz dövlətinə, xalqına yuxarıda qeyd etdiyimiz qruplaşmalar qədər ləkə vurmaq, böhtan atmaq yolunu tutub? Hansı ölkənin müxalifəti, əgər o "beşinci kolon" deyilsə, hakimiyyət məsələsini başqa ölkələrdə, yad qüvvələrlə müzakirə edir? Hansı ölkənin müxalifəti, əgər o "beşinci kolon" deyilsə, özünün bütün təbliğatını başqa ölkələrdə, yad qüvvələrin vəsaitləri hesabına yaradılmış təbliğat vasitələri sayəsində həyata keçirir?

Son bir neçə ay ərzində "beşinci kolon"un təbliğatında ölkədə iğişaşlar yaratmağa, sabitliyin pozulmasına yönəlmiş birbaşa çağırışlar çoxalıb. Respublika Baş Prokurorluğunun və Dövlət Təhlükəsizliyi Xidmətinin yaydığı bəyanatdan görünür ki, söhbət tək çağırışlarla bitmir. Onların arxasında ölkədə sabitliyin pozulmasına yönələn təxribatların törədilməsi kimi konkret fəaliyyət və cinayət əməlləri dayanır.

Dünyanın hər yerində olduğu kimi, Azərbaycan dövləti də koronavirus pandemiyası ilə mübarizə aparır. Cəmiyyətin və dövlətin bütün səyləri və imkanları amansız xəstəlikdən insanların qorunmasına səfərbər olunub. Belə bir həssas zamanda beşinci kolonun əlinə sanki fürsət düşüb. Dövlət koronavirusla vuruşur, "beşinci kolon" isə dövlətə qarşı vuruşmaq üçün təxribatçı qruplar hazırlayır.

Tarixi təcrübə göstərir ki, ölkədə "beşinci kolon" varsa ondan hər an təhlükə törəyə bilər və törəyir. Bu tarixi həqiqət Azərbaycanın nümunəsində bir daha təsdiqini tapır. "Beşinci kolon" ayrı-ayrı vaxtlarda ölkəmizdə az problemlər yaratmağa çalışmayıb. İğtişaşlar törətməyə, sabitliyi pozmağa və digər formalarda təxribatlara dəfələrlə cəhdlər göstərib. Bu çirkin niyyətlərini həyata keçirmək üçün erməni xüsusi orqanları ilə iş birliyinə getmək qədər xəyanətdən belə çəkinməyiblər. Necə deyərlər, Azərbaycana, Azərbaycan dövlətinə qarşı mübarizə aparmaq naminə şeytanın özü ilə əməkdaşlığa razı olublar. Məkrli niyyətlərinə yalnız dövlətin qüdrəti və xalqın müdrikliyi sayəsində nail ola bilməyiblər. Gücləri çatmayıb.

Bütün cəhdlərinin uğursuzluğa düçar olmasına baxmayaraq, "beşinci kolon" əməllərindən əl çəkmək fikrində deyil. İstədiyinə nail olmağa gücü çatmasa da, təxribatlar törətməyə hər an hazırdır. Cəmiyyətə və xalqa çox lazım olan sabitlik, əmin-amanlıq, insanların təhlükəsizliyi, ölkəmizin dayanıqlı inkişafı naminə beşinci kolonun mövcudluğuna son qoyulması sosial sifarişə, qaçılmaz zərurətə çevrilib.

Heç bir ölkə beşinci kolondan fayda görməyib, əksinə, ciddi problemlər yaşayıb. Azərbaycan istisna təşkil etmir. Tarix yalnız keçmişi xatırlamaq üçün deyil. Həm də ibrət dərsi götürmək üçündür.

# "İRATES": "Heç kim Nikolla bir yerdə batmaq istəmir"



***Ermənistanda dərc edilən "İrates" qəzeti yazır ki, hakimiyyət daxilindəki sorosçular Paşinyandan narazıdırlar və bunu gizlətmirlər. SİA adıçəkilən nəşrə istinadən xəbər verir ki, sonuncu hələ inqilab vaxtı əldə edilən razılaşmalara əməl etmir, onların (sorosçuların) irəliləmələrinə məhdudiyyətlər qoyur.***

"Sorosçular hesab edirlər ki, Nikol Paşinyan bunu strateji müttəfiqi Rusiyanın xoşuna gəlmək üçün edir, lakin reallıqda Paşinyan sadəcə hakimiyyətin monopoliyasına görə qorxaraq, sorosçulara kart-blanş vermək istəmir", deyə yazan "İrates" Nikolun sorosçuları dalana dirəməsini onların sahiblərindən Qarabağ məsələsində və digər məsələlərdə daha böyük dəstək alması ilə əlaqələndirib. "Həmçinin deyirlər ki, Paşinyanla sorosçularla arasında baş verən ixtilafın əsas səbəbi həm də ondadır ki, sorosçular Nikolun süqutunu hiss edirlər və onunla bir yerdə heç kim batmaq istəmir", erməni nəşri yazıb.

**Rövşən**

# Aydın Mirzəzadə: "Prezident vurğuladı ki, biz yardımı reklam üçün etməmişik"



"Prezidentin dünənki müsahibəsi bir daha göstərdi ki, Azərbaycan bugünkü inkişafı etibarlı əldədir və Prezident ona göstərilən yüksək etimadı öz fəaliyyəti ilə qoruyur". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Aydın Mirzəzadə Prezident İlham Əliyevin AzTv-yə müsahibəsinə münasibət bildirərkən deyib.

Onun sözlərinə görə, Prezident İlham Əliyev vaxtaşırı kütləvi informasiya vasitələrinə müsahibə verməklə öz fəaliyyəti barədə cəmiyyətə geniş hesabat verir və o, Azərbaycan Televiziyasına müsahibəsində bu günün bir çox aktual məsələlərinə toxundu: "Birinci növbədə koronavirusa qarşı Azərbaycanın apardığı siyasət və əhalinin sosial vəziyyətinin qorunması üçün dövlətin atdığı addımlardan danışıldı. Prezident İlham Əliyevin müsahibəsində pandemiyanın Azərbaycanda geniş yayılmasının qarşısını almaq üçün ciddi tədbirlərin görüldüyü vurğulandı. Azərbaycanda nəinki həmin xəstələrin müalicəsi üçün işlər görülür, hətta, bu gün ölkəmizdə həmin xəstəliyin gözlənilmədən yayılmasının qarşısını almaq üçün ehtiyatda xəstəxanalar, labarotoriyalar və avadanlıqlar da var. Digər tərəfdən vaxtında atılan addımlar xəstəliyin Azərbaycan geniş yayılmasının qarşısını ala bildi. Bununla əlaqədar Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanın atdığı addımları nümunəvi addımlar kimi qiymətləndirdi. Bunun üçün Azərbaycan büdcəsindən lazımı qədər vəsait ayrılır".

Millət vəkili ölkədə sosial istiqamətdə görülən işlərdən və sosial layihələrdən, ölkədə aparılan sosial siyasətdən də danışıb: "Prezident ötən il əhalinin əmək haqqı və müavinətlərinin artırılması ilə bağlı atılan addımların az qala əhalinin 50 faizini əhatə etdiyinə dair konkret rəqəmlər sadaladı. Pandemiya bu il iqtisadiyyatımıza bütün dünyada olduğu kimi müəyyən zərbə vurdu. Lakin, qabaqlayıcı addımlar bunun fəlakətli nəticələrinin, əhalinin sosial vəziyyətinə mənfi təsir etməsinin qarşısını aldı. Eyni zamanda Azərbaycan yeni inkişaf edən bir ölkə olmasına baxmayaraq pandemiyadan zərər çəkən, Azərbaycanla dostluq əlaqələri olan ölkələrə də yardım əlini uzatdı. Prezident İlham Əliyev bu gün 13-dən çox ölkələyə yardım göstərildiyini bildirdi və vurğuladı ki, biz yardım etmişik lakin bunu reklam üçün etməmişik. Prezidentin dünənki müsahibəsi bir daha göstərdi ki, Azərbaycan bugünkü inkişafı etibarlı əldədir və Prezident ona göstərilən yüksək etimadı öz fəaliyyəti ilə qoruyur".

**Nigar Məmmədova**



## "Azərbaycan bir sıra ölkələrə nümunədir"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 19-da Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təbeliyində olan Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin Bakının Nizami rayonunda yerləşən 3 saylı DOST mərkəzinin açılışında iştirak ediblər.

Məsələ ilə bağlı SİA-ya açıqlama verən millət vəkili Musa Qasımlı bunları deyib: "Möhtərəm Prezidentimizin iştirakı ilə DOST mərkəzinin açılışı ölkəmizdə sosial sahəyə xüsusi diqqət yetirilməsinin göstəricilərindən biridir. Bir daha təsdiq olunur ki, dövlətimizin siyasətində üstün yer Azərbaycan vətəndaşının sağlamlığı, rifah halının yaxşılaşdırılması və məmnunluğunun təmin edilməsidir. Digər sahələrdə olduğu kimi bu sahədə də Azərbaycan bir sıra ölkələrə nümunə verir. Həmin təcrübə bəzi ölkələr tərəfindən də tətbiq edilir. Bunun bariz nümunəsindən bir də "ASAN" Xidmət Mərkəzidir. Məhz buna görə də vətəndaşlar Prezident İlham Əliyevin ətrafında sıx birləşiblər və dövlət siyasətini müdafiə edirlər".

# PREZİDENTƏ YAZIRLAR: “Sizin rəhbərliyinizlə Azərbaycan daha güclü və qüdrətli olacaq!”



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə vətəndaşlardan minnətdarlıq məktubları gəlməkdə davam edir. SİA Prezidentin saytına istinadla həmin məktubların daha bir neçəsini təqdim edir.***

Ağdam rayonundan məcburi köçkünlər Aytəkin Əliyeva, Gültəkin Əliyeva, Gülyaz Əliyeva, Sevda Əliyeva, Aygün Qasımova və Aynurə Əliyeva yazırlar: “Hörmətli Prezidentimiz, dünyada pandemiyanın tüğyan etdiyi bir dövrdə verdiyiniz doğru qərarlar ölkəmizi COVID-19 virusunun ağır fəsadlarından qorumaqdadır. Bu çətin dövrdə Siz hər bir azərbaycanlının Prezidenti olduğunuzu işinizlə bir daha sübut etdiniz. Tez bir zamanda ölkəmizə lazımi tibbi avadanlıqların gətirilməsi, yeni xəstəxanaların fəaliyyətə başlaması, modul tipli xəstəxananın vaxtında tikilib başa çatdırılması qərarlarınızın dinamikliyinin nəticəsidir. Əminik ki, uzaqgörənliyinizin və dərin zəkanızın sayəsində xalqımız bu bəladan az itkilərlə sovuşacaq. Qətiyyətli addımlarınızın nəticəsi olaraq artıq ölkəmizdə yeni idarəetmə modeli formalaşır. Korrupsiya və rüşvətxorluğa qarşı tutduğunuz ciddi mübarizə siyasəti öz töhfəsini verməkdədir. Gördüyünüz bütün tədbirlər vətəndaş məmnunluğunun artırılmasına hesablanıb. Bunlar xalq-Prezident həmrəyliyini gücləndirir, Sizə olan inamı daha da artırır.

Cənab Prezident, bu çətin günlərdə xalqımıza göstərdiyiniz böyük dəstəyə və vətəndaşların sağlamlığını üstün tutduğunuza görə Sizə bütün təhsil işçiləri və məcburi köçkünlər adından təşəkkürümüzü bildiririk”.

Masallı rayonunun sakini İsgəndər Məmmədəliyev: “Möhtərəm Prezidentimiz, bu gün bütün dünyanı bürüyən koronavirus pandemiyasına qarşı ölkəmizdə də ciddi mübarizə aparılır. Epidemiya ilə əlaqədar olaraq iş yerlərinin müvəqqəti bağlanmasına görə insanlara dövlət tərəfindən maddi köməyin edilməsi, aztəminatlı ailələrin övladlarının təhsil haqqının dövlət tərəfindən ödənilməsi, eyni zamanda, işsiz insanlara iki ay müddətinə birdəfəlik ödənişin edilməsi, tibb işçilərinin əməkhaqlarının 3-5 dəfə artırılması, haqqı ödənilən sosial iş yerlərinin açılması Sizin xalqımıza olan sevginizin daha bir göstəricisidir. Bizə göstərdiyiniz diqqət və qayğıya görə Sizə təşəkkür edirəm. Allah Sizi qorusun!”.

Daşkəsən şəhərindən Sərvinaz Qurbanova: “Hörmətli cənab Prezident və hörmətli Mehriban xanım, əvvəlcə onu bildirim ki, oğlum Əli Polis Akademiyasında təhsil alır. Ailəmiz buna çox sevinir. Həyat yoldaşım da həm hərbçi kimi xidmət edərkən, həm də polis işləyərkən torpaqlarımızın bütövlüyü uğrunda gedən döyüşlərdə iştirak edərək öz vətəndaşlıq borcunu şərəflə yerinə yetirib. Hazırda təqaüdçüdür. Müstəqil Azərbaycanda övladlarımızın sülh və əmin-amanlıq şəraitində yaşayıb təhsil almasına görə hər birimiz, ilk növbədə, ulu öndərimiz Heydər Əliyevə borcluyuq. Oğlumun oxuduğu təhsil müəssisəsi haqqında sevinclə, ağızdolusu danışa bilərəm. Sizin təhsil sahəsinə ayırdığınız diqqətin, tələbkarlığın nəticəsini biz vətəndaşlar görürük. Sizə ailəmiz adından səmimi təşəkkür edirəm. Sizin yürütdüyünüz siyasəti bəyənir və dəstəkləyirik.

Hörmətli cənab Prezident və hörmətli Mehriban xanım, Azərbaycan Respublikasının inkişafına, nüfuzunun artmasına, vətəndaşlarının maddi rifah halının yaxşılaşdırılmasında göstərdiyiniz əməyə və yürütdüyünüz siyasi xəttə görə əminliklə deyirik ki, xalqımızın taleyi, gələcəyi etibarlı əllərdədir. Əminik ki, vaxt gələcək, işğal olunmuş torpaqlarımız da azad ediləcək, insanlarımız daha yaxşı yaşayacaq. Dünyanı bürüyən koronavirus pandemiyasının yayıldığı bir vaxtda Sizin vətəndaşlara göstərdiyiniz qayğı və maddi yardımlar bir daha göstərir ki, dövlətimiz uğurla idarə olunur. Xeyirxah işlərinizi söyləməklə qurtarmaz. İşsizliyin minimuma endirilməsinə, qocalara qayğıya, kimsəsizlərə köməyə görə Sizə minnətdarıq. Bütün bu işlərə, yürütdüyünüz sülhsevər və uğurlu siyasətə görə təşəkkür edirik”.

Tərtər rayonundan Sadiq Quliyev: “Möhtərəm cənab Prezident, Sizi bütün tərtərlilər adından salamlayıram. Bütün dünyanın qarşısında aciz qaldığı pandemiyaya qarşı mübarizədə Sizin xalqla birlikdə “Biz birlikdə güclüyük!” şüarı altında həmrəy olaraq atdığınız qətiyyətli və humanist addımlar həm xalqın Sizə olan inamını və sevgisini daha da artırdı, həm də Sizin rəhbərliyinizlə Azərbaycan dünya dövlətlərinə nümunə olaraq rəğbət qazandı. Bu gün Tərtərdə imkansız ailələrə əl tutmaq, yardım etmək bir hərəkata çevrilib. Buna görə də mən bütün tərtərlilərin Sizə minnətdarlığını çatdırmağı özümə borc bildim. Tanrı Sizi, ailənizi, Azərbaycan xalqını və dövlətini qorusun!”.

Şəki şəhərindən Ruhəngiz Məmmədova, Eldəniz Aslanov, Gülmirə Aslanova, Xəyalə Qurbanova və Məmməd Qasımov yazırlar: “Hörmətli cənab Prezident, vətəndaşların sağlamlığını düşünərək koronavirusla mübarizə sahəsində ilkin qabaqlayıcı tədbirlər görən ölkələrdən biri də Azərbaycandır. Sizin təşəbbüsünüz və rəhbərliyinizlə operativ olaraq həyata keçirilən qabaqlayıcı tədbirlər vətəndaşlarımızın sağlamlığının qorunub saxlanılması üçün misilsiz əhəmiyyətə malikdir. Buna görə xalqımız Sizə minnətdardır. Karantin dövründə sadə insanların yanında olduğunuza, əhaliyə edilən yardımlara, ödənilən müavinətlərə və bir sıra güzəştlərə görə Sizə dərin minnətdarlığımızı bildiririk. Allah Sizi və Azərbaycanımızı qorusun!”.

Cəlilabad rayonunun sakini Əli Məmmədovun məktubunda deyilir: “Hörmətli cənab Prezident, bu çətin dövrdə Azərbaycan xalqının, dövlətinin etibarlı müdafiəsi, sağlamlığının qorunması, aztəminatlı ailələrin ehtiyacının ödənilməsi bütün dünya azərbaycanlılarının sevincinə səbəb olub. Bunu Sizə ünvanlanan çoxsaylı təşəkkür məktublarından da görmək olar. Mən də ailəmin adından Sizə təşəkkür etməyi özümə borc bilirəm. Uca Allah Sizə, Mehriban xanıma və ailənizə daim kömək olsun! Azərbaycan xalqının bütün vətənpərvər nümayəndələri hər zaman Sizin yanınızdadır”.

Şirvan şəhərindən Züleyxa Qayıbova yazır: “Hörmətli cənab Prezident, ölkəmizə də təsir edən koronavirus pandemiyasının yaratdığı bu çətin günlərdə hamı kimi mənim də ürəyimdə nigaranlıq duyğuları var idi, təlaşımızda haqlı idik. Dünyanın bir çox inkişaf etmiş böyük dövlətlərinin belə qarşısında aciz vəziyyətə düşdükləri pandemiya hamımızdan çox Sizi narahat edirdi. Hər zamankı məsuliyyətiniz bu günlərdə də öz sözünü dedi. Əsl rəhbər, əsl dövlət xadimi, əsl vətəndaş mövqeyi sərgiləyərək xalqımızı, dövlətimizi bu bəladan uzaq tutmağınız Sizin şəxsinizə, insani keyfiyyətlərinizə olan sevgini daha da artırdı. Biz ahılların Sizə ünvanlanan duaları, alqışları Sizi daha da qüvvətləndirdi. Karantin elan olunan ilk gündən aztəminatlı ailələrə olunan yardımlar, dövlət işlərində çalışanların məvaciblərinin əvvəlki kimi ödənilməsi, işsiz kimi dövlət qeydiyyatından keçmiş vətəndaşlarımıza edilən yardımlar sosial və hüquqi dövlət kimi qüdrətimizi bütün dünyaya göstərmiş oldu.

Əziz Prezidentimiz, Siz ölkəmizi təhdid edən bütün problemlərin öhdəsindən qətiyyətlə gəlmək bacarığınızı bir daha təsdiq edərək bütün dünyaya örnək bir lider olduğunuzu sübut etdiniz. Sizinlə fəxr etdik, qürurlandıq, ruhlandıq, birləşdik. Allah Sizdən razı olsun, əziz Prezidentimiz! Nə yaxşı ki, varsınız!”.

Bakı şəhərinin sakini Sevil Qurbanova: “Möhtərəm cənab Prezident, məktubuma ümummilli liderimiz Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə gəldiyi vaxtlarda atamın dediyi sözlərlə başlamaq istəyirəm: “Heydər Əliyev bizi bu bəladan qurtaracaq”. Azərbaycanın çətin vaxtında atamın əminliklə dediyi bu sözləri o zaman uşaq olduğuma görə tam dərk etmirdim, amma zamanla ulu öndər Heydər Əliyevin qüdrətli siyasəti nəticəsində Azərbaycanımızın bəlalardan qurtulub gündən-günə çiçəkləndiyinin şahidi oldum. Son zamanlar bütün dünyanı bürümüş pandemiya ölkəmizdən də yan keçməyəndə Sizin ilk çıxışınız zamanı atam: “Prezidentimiz İlham Əliyev bizi bu bəladan qurtaracaq. Atasının oğludur”, - deyəndə bu dəfə əmin idim ki, Sizin rəhbərliyinizlə bu bəladan üzüağ çıxacağıq. Dünyanın nəhəng dövlətlərinin COVID-19 qarşısında aciz qaldığı bir zamanda Sizin uzaqgörən siyasətiniz sayəsində Azərbaycan bu gün ən az itki verən ölkələr sırasındadır. Pandemiyanın üzə çıxdığı ilk gündən etibarən Azərbaycan xalqına diqqət və qayğınızı əsirgəmədiniz. Sizin qabaqlayıcı tədbirlər barədə verdiyiniz bütün qərarlar xalqımızın rifahı və sağlamlığı məqsədi daşıyırdı. Siz bu çətin zamanda bir daha sübut etdiniz ki, ümummilli liderimiz Heydər Əliyevin layiqli davamçısısınız. Bir daha əmin olduq ki, ölkəmiz Sizinlə daim gözəl günlər yaşayacaq.

Ardı Səh. 6

# PREZİDENTƏ YAZIRLAR: “Sizin rəhbərliyinizlə Azərbaycan daha güclü və qüdrətli olacaq!”



**Əvvəli-Səh-5**

Cənab Prezidentimiz, ölkəmizin inkişafı, xalqımızın rifahı və sağlam gələcəyi üçün göstərdiyiniz diqqət və qayğıya görə Sizə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin təşəkkürümü bildirirəm. Biz Sizinlə güclüyük!”.

Gəncə şəhərindən Rza Ələsgərov: “Hörmətli cənab Prezident, dünyanı bürümüş koronavirus pandemiyasından xalqımızın qorunması üçün vaxtında, tam dəqiq verdiyiniz qərarlar və göstərişlər nəticəsində Azərbaycan xalqının bu xəstəlikdən qorunmasına nail olunub. Dünya ölkələrindəki vəziyyətə baxdıqda Azərbaycan xalqı üçün verdiyiniz göstərişlər və görülən işlər olmasaydı, ölkəmiz üçün vəziyyət heç də ürəkaçan olmayacaqdı. Bütün bunlardan açıq görünür ki, Sizin başlıca məqsədiniz xalqımızın bu xəstəlikdən minimum itki ilə çıxmasıdır. Bir çox ölkələrin iqtisadiyyatı fikirləşərək qərarları gecikdirməsi hazırda pandemiyanın ağuşunda olmalarına gətirib çıxarıb. Hazırkı vəziyyətdə aydın görünür ki, Azərbaycan xalqı üçün verdiyiniz qərarlar nə dərəcədə doğrudur. Bu qərarlar nəticəsində koronavirus pandemiyasının ölkədə yayılması minimuma endirilib, səhiyyə bu xəstəliklə mübarizəyə tam hazırlanıb. Verdiyiniz qərarlar digər ölkələrə nümunə olub.

Cənab Prezident, belə bir vəziyyətdə hər zamankı kimi xalqın yanında olduğunuz üçün Sizə və Mehriban xanım Əliyevaya dərin minnətdarlığımı bildirir, təşəkkür edirəm. Biz bir daha əmin olduq ki, ən çətin günlərdə güvənə biləcəyimiz Prezidentimiz var”.

Xaçmaz rayonunun sakinləri Şakir Məmmədov, Aytən Adilova, Svetlana Eldarova və Həmid Eldarov yazırlar: “Möhtərəm cənab Prezident, “Xanoba” gömrük postunun tikintisi, həmin postla “Samur” sərhəd keçid məntəqələri arasındakı avtomobil yolunun genişləndirilməsi ilə bağlı sərəncamlarınız xaçmazlılara verdiyiniz ən yüksək qiymət və ölkəmizdə aparılan iqtisadi islahatların məntiqi davamıdır. Bu istiqamətdə ayırdığınız maliyyə vəsaiti sərhəd zonasında yaşayan əhalinin rahat şəkildə sərhəd keçid məntəqəsindən istifadə etməsinə, yolda isə maneəsiz hərəkətinə dəstək olacaq. Siz ulu öndər Heydər Əliyevin uğurlu siyasətini əzmlə, böyük iradə ilə davam etdirərək müstəqil Azərbaycanı daha da gücləndirirsiniz. Bu yolda Sizə möhkəm cansağlığı, uğurlar arzulayırıq”.

Kürdəmir rayonundan Ayşad Qarayeva, Elmar Əsədov, Tahirə Məmmədova və Dürdanə Şirinova yazırlar: “Möhtərəm cənab Prezident, biz Sizinlə, sözün əsl mənasında, fəxr edirik. Bu gün biz məhz Sizin uzaqgörən siyasətinizin nəticəsində sağlamıq, sevdiklərimizin əhatəsindəyik. Bu çətin günlərdə istər karantində olan, istərsə də evdə qalan vətəndaşlarımız xüsusi diqqət və qayğı ilə əhatə olunublar. Həmin diqqət və qayğı xeyirxah, nəcib işlər görən, xalqın xeyri üçün əlindən gələni, hətta ondan da artığını edən, ən əsası isə ulu öndər Heydər Əliyev yolunun uğurlu davamçısı olan bir liderin sayəsində mümkün oldu. Sizin Prezidenti olduğunuz bir ölkədə yaşamağımızla qürur duyuruq. Yaşasın müstəqil Azərbaycanın Prezidenti və onun ətrafına sıx birləşən Azərbaycan xalqı!”.

Şəmkir rayonundan Könül Məmmədova, Günay İsayeva, Xatın Hüseynova və Vüsalə Yolçuyeva yazırlar: “Möhtərəm cənab Prezident, biz Sizə Şəmkir rayonunun müəllim, tələbə və şagirdləri adından müraciət edərək təşəkkür etmək istəyirik. Sizin sayənizdə xalqımız koronavirus xəstəliyindən az zərərlə qurtulacaq. Siz şagirdləri, tələbələri xəstəlikdən qorudunuz, lakin heç kim təhsildən kənarda qalmadı. Sizin vətəndaşlara, xalqımıza nə qədər dəyər verdiyinizi hamı gördü. Azərbaycan xalqının sağlamlığı üçün atdığınız addımlar Sizin xalqa sevginizi bir daha nümayiş etdirdi.

Cənab Prezident, Allah Sizi daim qorusun! Çox sağ olun”.

Ağdam rayonundan Əli Rzayev, Qəmər Səfərova və Rəfail Zeynalov dövlətimizin başçısına minnətdarlıqlarını bu sözlərlə bildirirlər: “Möhtərəm cənab Prezident, son aylarda dünyanı bürüyən qorxulu koronavirus xəstəliyinə qarşı mübarizəniz, gecəgündüz öz xalqınızı qorumağınız bizə yaxşı məlumdur. Bu zəhmətinizə görə Sizə dərin minnətdarlığımızı bildiririk. Bu gərgin zəhmətin arxasında xalqın iqtidara olan inamı, sevgisi, etibarı dayanır.

Cənab Prezident, bu çətin günlərdə biz xüsusi qayğı hiss edirik. Aldığımız yardımlar həm də mənəvi dəstək idi. Biz ağdamlılar həmişə Sizin yanınızdayıq. Sizin səmərəli fəaliyyətinizlə bizi qarşıda daha gözəl günlər və Qarabağa qayıdış gözləyir. Allahdan Sizə güc və sağlamlıq arzulayırıq”.

Bakı şəhərinin sakini İlham Tağıyev: “Möhtərəm cənab Prezident, mən bir neftçi kimi Sizə minnətdarlığımı bildirmək istəyirəm. Dünyanı bürümüş koronavirus pandemiyasının ölkəmizə təsirini azaltmaq məqsədilə həyata keçirdiyiniz tədbirlər təqdirəlayiqdir. Çünki bu mübarizədə tibbin ən inkişaf etdiyi ölkələr belə aciz qalıb. Çox sevindirici haldır ki, Azərbaycanda məhz Sizin uzaqgörən siyasətiniz, qabaqlayıcı tədbirləriniz sayəsində bu virusun genişlənməsinin qarşısı alındı. Azərbaycanın koronavirus pandemiyasından ən az zərər çəkən ölkələr arasında ilk yerlərdə olması məhz Sizin qabaqlayıcı tədbirləriniz sayəsindədir.

Cənab Prezident, “Biz birlikdə güclüyük!” çağırışınızla xalqımızın malik olduğu ən ülvi dəyərləri səfərbər etdiniz. Həmçinin, ölkədə əhalinin bütün təbəqələrini diqqətdə saxlamağınız Sizə olan inam və etibarı ikiqat artırdı. Azərbaycanlılar Sizinlə və Mehriban xanımla qürur duyur, fəxr edir. Bizi, Azərbaycan xalqını bu cür diqqət və qayğı ilə əhatə etdiyiniz üçün ailəmin adından Sizə dərin təşəkkürümü bildirirəm.

Möhtərəm cənab Prezident, güclü dövlətçiliyimiz, yüksək rifahımız naminə Sizə və əzizlərinizə, xalqımıza möhkəm cansağlığı diləyirəm. Allah Sizi və Azərbaycan xalqını qorusun!”.

Bakı şəhərinin Xətai rayonunun sakinləri Firdovsi Həsənov, Gülşən Ağayeva, Səməd Cabbarov, Rahilə Mahmudova və Abil Əliyev yazırlar: “Hörmətli cənab Prezident, Sizin koronavirusla bağlı qabaqlayıcı tədbirləriniz çoxsaylı insan tələfatının qarşısını aldı. Bu işinizə görə bu gün Azərbaycan bir çox ölkələrə örnək göstərilir. Siz insanların sağlamlığını iqtisadi fəallıqdan, maddi gəlirlərdən üstün tutdunuz. Biz çox xoşbəxtik ki, Sizin rəhbərlik etdiyiniz ölkədə yaşayırıq. Çox fərəhləndirici haldır ki, xalqın malına göz tikən, vəzifəsindən sui-istifadə edən rüşvətxor məmurlara qarşı mübarizəni də uğurla davam etdirirsiniz. Son günlərdə bir neçə vəzifəli şəxsin məsuliyyətə cəlb olunması cəmiyyətdə böyük rəğbətlə qarşılanıb.

Əziz Prezidentimiz, biz vətəndaşlar əminik ki, dünyaya Günəş kimi doğan Azərbaycanın qarşısını kəsməyə, şəfəqini azaltmağa çalışan qara buludlar tezliklə dağılacaq, ölkəmiz hər zaman açıq səmada parlamaqda davam edəcək. Sizə dərin təşəkkürümüzü bildirir, işlərinizdə yeni-yeni uğurlar, sağlam və uzun ömür arzulayırıq”.

Bərdə rayonunun Samux kəndindən Seymur Məmmədov: “Hörmətli cənab Prezident, Sizin tapşırığınıza əsasən respublikamızın bütün regionlarında müasir avtomobil yollarının, körpülərin, keçidlərin yüksək keyfiyyətlə tikilməsinin şahidi oluruq. Tapşırığınıza əsasən Bərdə rayonunun Samux kəndində də uzunluğu 4 kilometr olan yeni yol tikilib. Bu yolun tikintisi kənd sakinlərinin hədsiz sevincinə səbəb oldu. Görülən işlərə görə kəndimizin camaatı adından Sizə dərin minnətdarlığımızı bildiririk. Samux kəndinin sakinləri adından Sizə bitməz-tükənməz yollar qədər uzun ömür, cansağlığı və ailə səadəti arzulayırıq. Çox sağ olun, cənab Prezident”.

Ucar rayonundan Aysu Ramazanova və Saleh Qardaşov yazırlar: “Möhtərəm cənab Prezident, koronavirus pandemiyası dövründə bizə arxa-dayaq olduğunuza, hər birimizə xüsusi diqqət yetirdiyinizə, hər kəsin problemini həll etməyə çalışdığınıza görə Sizə minnətdarıq. Siz Azərbaycan xalqının sağlamlığını, təhlükəsizliyini, rifahını hər şeydən üstün tutur və buna nail olmaq üçün əlinizdən gələni əsirgəmirsiniz. Biz də Sizə inanır, güvənir və Sizinlə fəxr edirik. Allah Sizi və xalqımızı qorusun!”.

Füzuli rayonundan Hörmət Səfərov, Eynulla Cəfərov, Miralı Nəsirov, Hüseyn Əliyev, Əsəd Kazımov, Rahib Mehdizadə və Mədəd Məmmədov yazırlar: “Hörmətli cənab Prezident, Sizin geniş dünyagörüşünüzə, sağlam düşüncənizə, böyük siyasi təcrübənizə, dərin təfəkkürünüzə əsaslanan qərarlarınız xalqımızın sağlamlığının qorunmasına, təhlükəsizliyinin təmin olunmasına xidmət edir. Bu istiqamətdə atdığınız addımlar, gördüyünüz qabaqlayıcı və təxirəsalınmaz tədbirlər artıq öz nəticəsini verməkdədir. Ümumbəşəri bəla olan koronavirus pandemiyası ilə mübarizədə dünyanın inkişaf etmiş dövlətlərinin belə aciz qaldığı vəziyyətdən minimum ziyanlarla çıxmağımız, son dövrlərdə ölkəmizdə zəruri tibbi vasitələr, avadanlıq və ləvazimatlar ilə təminatın yaxşılaşdırılması, müasir tələblərə cavab verən yeni səhiyyə ocaqlarının istifadəyə verilməsi, xaricdə çalışan həkimlərimizin, tibb üzrə alimlərin ölkəmizdə gedən proseslərə cəlb edilmələri, xalqın rifahı naminə göstərdiyiniz diqqət və qayğı ictimaiyyət tərəfindən rəğbətlə qarşılanır. Tanrı xalqımızın daha sağlam və firavan sabahı naminə daim Sizi və ailənizi qorusun!”.

Masallı rayonunun Bədəlan kəndindən Firdovsi Cəbrayılov: “Möhtərəm cənab Prezident, bu gün bəşəriyyət ağır sınaq qarşısındadır. Dünyanı təhdid edən pandemiyanın Azərbaycanda yayılmasının qarşısını almaq üçün ilk gündən lazımi sosial və iqtisadi tədbirlər görüldü. Sizin apardığınız uğurlu siyasət nəticəsində xalqımızın rifahı yaxşılaşıb, sosial sahədə böyük nailiyyətlər əldə olunub. Bütün dünyanı cənginə alan koronovirus bəlasından xalqımızı qorumaq üçün vaxtında verdiyiniz qərarlar və tapşırıqlar bir Azərbaycan vətəndaşı kimi bizi çox sevindirdi. Çox sevindirici haldır ki, iqtisadi gücü ilə öyünən bir çox dövlətlər belə ölkəmizin bu pandemiyaya qarşı apardığı mübarizə üsulundan faydalanırlar. İnanıram ki, Sizin hərtərəfli düşünülmüş siyasətiniz nəticəsində ölkəmiz postpandemiya dövründə öz iqtisadi gücünü sürətlə bərpa edəcək. Son günlər kəndimizin sakinlərinin maddi rifahının təmin olunması üçün Heydər Əliyev Fondu tərəfindən göndərilən yardımlar kənd camaatı tərəfindən böyük sevinclə qarşılandı. Buna görə kənd sakinləri adından Sizə, Mehriban xanım Əliyevaya və Heydər Əliyev Fonduna təşəkkürümüzü bildiririk.

Cənab Prezident, hər zaman olduğu kimi, bu ağır günlərdə də xalqın yanında olaraq hər bir vətəndaşın sağlamlığı, təhlükəsizliyi və sosial rifahı naminə atdığınız bütün addımları yüksək qiymətləndirir, bizi qoruduğunuz üçün Sizə minnətdarlığımızı bildiririk. Vətənimizin daha xoşbəxt sabahı üçün həyata keçirdiyiniz tədbirləri görür, alqışlayır və Sizin ətrafınızda sıx birləşmişik. Sizə işlərinizdə uğurlar arzulayıram. Allah Sizi qorusun!”.

Bakının Xəzər rayonunun Qala qəsəbəsindən Qorxmaz Ağayev: “Möhtərəm cənab Prezident, koronavirus pandemiyası səbəbindən dünyanın əksər ölkələri hazırda çətin günlər yaşayır. Təbii ki, pandemiya Azərbaycana da təsirini göstərdi. Dünya bazarlarında neftin qiymətinin aşağı düşməsinə baxmayaraq, Azərbaycan vətəndaşı heç bir çətinlik hiss etmədi. Bunlar Sizin mükəmməl siyasi və iqtisadi siyasətinizin uğurlarıdır. İşsiz kimi qeydiyyatda olan şəxslərə pandemiya dövründə aylıq 190 manat vəsaitin verilməsinə görə Sizə minnətdarlığımı bildirirəm. Azərbaycan vətəndaşı əmindir ki, bütün vəziyyətlərdə dövləti onun arxasındadır. Sizə bir daha minnətdarlığımı bildirir, yürütdüyünüz siyasətin uğurlarının daha bol olmasını arzu edirəm. İnanıraq ki, Sizin rəhbərliyinizlə Azərbaycan daha güclü və qüdrətli olacaq”.

# "Washington Times" qəzeti Azərbaycanda aparılan islahatlara və Ermənistan-Azərbaycan münaqişəsinə dair məqalə yayıb




***ABŞ-ın nüfuzlu və geniş auditoriyaya malik mətbu orqanı "Washington Times" qəzetində Azərbaycanın bu ölkədəki səfiri Elin Süleymanovun "Pandemiya Dağlıq Qarabağ regionunda həlli uzanan Ermənistan-Azərbaycan münaqişəsini işıqlandırır" (Pandemic highlights the protracted Azerbaijan-Armenia conflict in Nagorno-Karabakh region) sərlövhəli məqaləsi dərc edilib.***

AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycanda aparılan islahatlar barədə məlumat verilib və Ermənistan xarici siyasətində baş verən çaşqınlıqlar təhlil edilib. Koronavirus pandemiyasının insanların sağlamlığına və dövlətlərin iqtisadiyyatına ziyan vurması fonunda beynəlxalq institutlar və siyasətə dair bir sıra stereotipləri sındırmasından, dünyada status-kvonun dəyişməsindən bəhs edilir.

Qeyd edilib ki, Xəzər dənizi regionunda Mərkəzi Asiya ölkələri, Azərbaycan, Türkiyə, həmçinin son dövrlərdə Macarıstanı (müşahidəçi qismində) bir araya gətirən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (TDƏŞ) səmərəli əməkdaşlıq formatına çevrilib. Bu təsisat ABŞ-ın Mərkəzi Asiya strategiyasının vacib hissələrindən olan Asiya ilə Avropa arasında İpək yolu boyunca dəmir yolu daşınmalarının həcminin artırılmasında qarşılıqlı və uğurlu əməkdaşlıq edib. TDƏŞ Azərbaycanın sədrliyi altında dövlət başçıları səviyyəsində koronavirus pandemiyası ilə mübarizəyə həsr olunmuş onlayn Zirvə görüşü keçirən ilk beynəlxalq təşkilatdır.

Müəllif qeyd edir ki, Azərbaycan texnokrat və nəticələrə yönəlmiş kadrları dövlətdə əsas vəzifələrə gətirməklə struktur islahatları həyata keçirir. ABŞ Prezidenti Donald Tramp Azərbaycan Prezidenti İlham Əliyevə ünvanladığı təbrik məktubunda ölkəmizin suverenliyi və müstəqilliyinə öz güclü dəstəyini ifadə edib.

Məqalədə, həmçinin pandemiya fonunda regionun üzləşdiyi çətinliklərə, xüsusilə Ermənistan-Azərbaycan münaqişəsinə nəzər salınır. Fransa, Rusiya və ABŞ-ın həmsədrlik etdikləri ATƏT-in Minsk qrupunun 30 ilə yaxın davam edən vasitəçiliyinin nəticəsiz olduğu vurğulanır. Qeyd edilir ki, pandemiya dövründə onların vasitəçiliyi ilə Ermənistan və Azərbaycan Xarici İşlər nazirlərinin videokonfransı baş tutub və tədbirdə birgə bəyannamə qəbul edilib.

Müəllif yazır ki, Cənubi Qafqazda gedən inkişafa baxmayaraq, Ermənistan qeyri-sabit və təhlükəli status-kvonu saxlamağa davam edir. Ermənistanın Xarici İşlər naziri Zöhrab Mnatsakanyan 2009-cu ildə Minsk qrupunun həmsədr ölkələrinin prezidentləri tərəfindən təsdiqlənən və gələcək sülh razılaşması üçün əsas məqamları əks etdirən Madrid prinsiplərinə qarşı çıxıb. Z.Mnatsakanyanın təkzibinin daha sonra digər erməni rəsmiləri tərəfindən təkrarlandığını nəzərə alsaq, son iki ildə fəal şəkildə hansı mövzuda danışıqlardan söhbət getdiyi sual olunur.

Prinsiplər digər elementlərlə yanaşı, Ermənistan silahlı qüvvələrinin BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərindən mərhələli şəkildə çıxarılması, məcburi köçkünlərin öz torpaqlarına geri qayıtması, iqtisadi əlaqələrin bərpa edilməsi və Dağlıq Qarabağ regionunun erməni və azərbaycanlı icmalarının təhlükəsizliyinə zəmanəti özündə ehtiva edir.

Danışıqların başqa formatının olmadığı dövrdə prinsiplərin təkzib edilməsi, ümumilikdə, sülh danışıqlarından imtina etmək anlamına gəlir. Buna görə də Azərbaycan Ermənistanın təcavüzü və etnik təmizləmə nəticəsində bir milyondan çox vətəndaşının öz doğma torpaqlarından didərgin düşməsinə baxmayaraq, Minsk qrupu tərəfindən aparılan danışıqlar çərçivəsində münaqişənin sülh yolu ilə həllinə sadiqliyini davam etdirir və ümumi prinsipləri şərti şəkildə danışıqlar üçün əsas kimi qəbul edir. Müstəqil dövlətlər və beynəlxalq birliyin məsuliyyətli üzvləri məhz bu yolu seçirlər.

Təəssüf ki, Ermənistan öz formal müstəqilliyini hələ də suverenliyə çevirməyib. Hərbi və iqtisadi sahələrdə xaricdən asılı olan bu dövlət özünütəcrid nəticəsində regionun əsas regional inteqrasiya təşəbbüslərindən kənarda qalır. Ermənistan Azərbaycan torpaqlarının işğalının əsirinə çevrilib.

Yazıda vurğulanır ki, monoetnik cəmiyyətə malik olan, antisemitizmin yüksək səviyyəsinin müşahidə edildiyi və tarixində nasist tərəfdaşlarının olduğu Ermənistan üçün qonşulara inanmamaq ən sadə seçim görünə bilər. Lakin belə bir seçim erməni xalqının gələcəyinə, ölkənin isə davamlı inkişafına manea yaradır.

Davamlı sülhə nail olunması və qonşularla birgə yaşamaq, güclü iqtisadi əlaqələr qurmaq, regionun əsas təşəbbüslərində iştirak etmək, əslində, sülhü təmin etmək üçün ən səmərəli yollardır. Bəs bunun alternativi nədir?

Səfir BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığında çalışan zaman bütün əziyyətlərə və məcburi didərgin salınmalarına baxmayaraq, bir çox məcburi köçkündən erməniştanlı qonşuları ilə yanaşı yaşamağa hazır olduqlarını eşitdiyini bildirir və bunun dəfələrlə Dağlıq Qarabağın azərbaycanlı icması tərəfindən də səsləndirildiyini diqqətə çatdırır. Diplomat erməni liderlərin bu xoş məramdan imtina etməkdənsə, sülh barədə düşünməli olduqlarını vurğulayır.

# Adil Əliyev: "ABŞ-ın maraqları Azərbaycanla strateji tərəfdaşlığı diktə edir"

***Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın Azərbaycan Prezidenti İlham Əliyevə 28 May - Respublika Günü münasibətilə göndərdiyi təbrik məktub iki ölkə arasındakı əməkdaşlığın mövcud durumundan xəbər verir.***



Bu fikri Milli Məclis Sədrinin müavini Adil Əliyev bildirib.

Məktubda yer alan fikirlərin çox əhəmiyyətli olduğunu vurğulayan Adil Əliyev deyib: "Birincisi, Ağ ev sahibi məktubunda yazır ki, Birləşmiş Ştatlar Azərbaycanın suverenliyini və müstəqilliyini güclü şəkildə dəstəkləyir. İkincisi, Ağ ev sahibi Birləşmiş Ştatların və Azərbaycanın beynəlxalq təhlükəsizliyi gücləndirmək, Avropanın enerji marşrutlarını və mənbələrini şaxələndirmək və iki böyük xalqın insanlarına parlaq gələcək qurmaq naminə təxminən 30 il əməkdaşlıq etdiyini xatırladıb. ABŞ Prezidenti Azərbaycanın bu fəaliyyətdə mühüm töhfələr verdiyini yüksək dəyərləndirib. Üçüncüsü, məktubda vurğulanır ki, koronavirus pandemiyası ilə üzləşdiyimiz bir vaxtda Birləşmiş Ştatlar Azərbaycan xalqının yanındadır".

Milli Məclis Sədrinin müavini qeyd edib ki, məktubda yazılan "iki böyük xalq" ifadəsi ABŞ Prezidentinin Azərbaycan xalqına verdiyi yüksək qiymətdən xəbər verir. ABŞ Azərbaycana strateji tərəfdaş olan ölkələrdəndir. Dövlət başçısı İlham Əliyev Amerikanın Azərbaycanın enerji layihələrinə verdiyi dəstəyi hər zaman yüksək qiymətləndirib. 1990-cı illərin ortalarında Türkiyə ilə birgə ABŞ-ın Bakı-Tbilisi-Ceyhan neft boru xəttinə verdiyi dəstək Azərbaycanın müstəqillik illərində ilk böyük enerji layihəsinin həyata vəsiqə qazanmasını sürətləndirdi. Halbuki, bu layihə ilə bağlı dövlətimizə qarşı açıq və gizli təhdidlər mövcud idi. Bu təhdidlərə baxmayaraq, ümummilli liderimiz Heydər Əliyev həm "Əsrin müqaviləsi"ni, həm də Bakı-Tbilisi-Ceyhan boru xəttinin tikintisi ilə bağlı Sazişi imzaladı. Prezident İlham Əliyev isə Ümummilli Liderin siyasətini davam etdirərək Bakı-Tbilisi-Ceyhan boru xəttinin fəaliyyətə başlamasını, o cümlədən "Əsrin müqaviləsi"nin növbəti 25 il üçün də uzadılmasını təmin etdi. Rəsmi Vaşinqton Prezident İlham Əliyevin Azərbaycan dövlətinin gücləndirilməsinə xidmət edən bu siyasətini dəstəkləyir. Çünki bu siyasət Amerikanın da maraqlarına cavab verir. Digər tərəfdən Azərbaycanın Amerika ilə formalaşdırdığı əməkdaşlıq əslə üçüncü ölkələrə qarşı yönəlməyib.

Adil Əliyev deyib ki, ABŞ Prezidentinin məktubunda da vurğulandığı kimi, iki ölkə arasında strateji əlaqələr bir neçə sahəni əhatə edir. Bu sırada enerji, təhlükəsizlik və iqtisadi əlaqələrin özünəməxsus yeri var. Doğrudur, ABŞ Konqresinin və Dövlət Departamentinin Azərbaycanın maraqları əleyhinə zaman-zaman qəbul etdiyi sənədləri ciddi tənqid edirik. Ancaq Amerikada əsas söz sahibi olan Prezidentin Azərbaycanla əməkdaşlığa verdiyi dəyər bizim üçün daha vacibdir.

"Cənubi Qafqazın hər baxımdan əsas ölkəsi Azərbaycandır. Bunu Vaşinqtonda da anlayırlar. Təsadüfi deyil ki, ABŞ-ın müasir xarici və təhlükəsizlik siyasətinin başlıca ideoloqları Avrasiya bölgəsində dünyəvi müsəlman ölkəsi olan Azərbaycanla strateji əlaqələrin Birləşmiş Ştatların milli təhlükəsizlik siyasətinin maraqlarına cavab verdiyini bildirirlər. Amerikada dəyişən prezidentlər siyasətlərini məhz bu ideologiya əsasında qururlar. Bəzən olur ki, ABŞ-ın hansısa tanınmış siyasətçisi prezident olmamışdan əvvəl erməni lobbisinə hansısa vəd verir. Ancaq həmin siyasətçi prezident seçildikdən sonra ölkəsinin milli və təhlükəsizlik maraqlarından çıxış edir. Həmin maraqlar isə Azərbaycanla strateji tərəfdaşlığı diktə edir", - deyə parlament Sədrinin müavini bildirib.

# "Bu siyasət bir daha Azərbaycanın sosial dövlət olduğunu təsdiqləyir"



"Azərbaycanda həyata keçirilən uğurlu sosial siyasət nəticəsində əhalinin rifahı əhəmiyyətli dərəcədə yaxşılaşıb. Pandemiya şəraitində də aparılan siyasət bir daha Azərbaycanın sosial dövlət olduğunu təsdiqləyir". SİA-nın verdiyi məlumata görə, bu fikirləri Milli Məclisin komitə sədri Tahir Rzayev deyib.

T.Rzayev bildirib ki, ötən illər ərzində vətəndaşların əməkhaqları və pensiyaları bir neçə dəfə artırılıb. Bu da əhalinin rifahına müsbət təsir edən amillərdən biridir. Onun sözlərinə görə, təkcə 2019-cu ildə iki dəfə icra olunan sosial paketlərlə əhalinin əməkhaqları və müavinətləri 2 dəfə, pensiyalar isə 70% artmaqla 4,2 milyon vətəndaşın sosial rifahını kifayət qədər yaxşılaşdırıb.

"Tətbiq olunmuş karantin rejimi nəticəsində fəaliyyətlərinə məhdudiyyət qoyulmuş sahələrdə çalışan, dövlət sektorunda 910 min, qeyri-neft sektorunda çalışan 710 min insanın əməkhaqlarının əhəmiyyətli hissəsini dövlət büdcəsindən ödənilir. Ödənişli ictimai iş yerlərin sayı 90 minə çatdırılır, işləməyən 600 min şəxsə isə 190 manat yardım verilir. Eyni zamanda 15 min ahıla sosial xidmətlər təşkil olunub. Bütövlükdə, 2,5 milyon nəfərin sosial vəziyyətinə dəstək üçün dövlət büdcəsindən 3,5 milyard manat vəsait ayrılıb. Koronovirusla mübarizəyə cəlb olunmuş tibb personalının əməkhaqları müddətli olaraq 3-5 dəfə artırılıb. Azərbaycan, xüsusilə pandemiya dövründə vətəndaşların qayğısına qalması və verilən dövlət dəstəyinin həcminə görə dünyada lider ölkələr sırasındadır"-deyə, komitə sədri vurğulayıb.

# Azərbaycan Prezidentinin təşəbbüslərinə böyük maraq: humanizm və yeni əməkdaşlıq modelləri nümunəsi

***Koronavirus pandemiyası hər bir dövlətin nəyə qadir olduğunu bir daha ortaya qoydu. Bu bəlaya dünya dövlətləri fərqli reaksiya verdilər. Çətin sınaq qarşısında hadisələrdən təşvişə düşənlər və sistemsiz hərəkət edənlər də oldu. Hətta bir sıra dövlətlər baş verənlərə laqeyd belə qaldılar. Onların fonunda Azərbaycan dövlətinin fəaliyyəti olduqca təqdirəlayiq görünür. Prezident İlham Əliyev qlobal pandemiya böhranı şəraitində çox səmərəli və kollektiv fəaliyyətə dəvət edən təşəbbüslər irəli sürdü. Beynəlxalq ictimaiyyət bu təşəbbüslərə laqeyd qalmadı. Maraqlı reaksiyalar oldu. Siyasi dairələr və ekspertlər bu təşəbbüsləri yüksək qiymətləndirdilər. Bütün bu prosesə geosiyasi kontekstdə daha geniş yanaşmağa ehtiyac duyduq.***




## Qlobal böhran şəraitində: dünyanı birləşdirən addımlar

Hər bir dövlətin əsl siması əsasən böhranlı dövrlərdə özünü göstərir. Humanizm, insan rifahı, cəmiyyətin və dünyanın gələcəyi, əməkdaşlıq tərəfdarı olan ölkənin böhranlı vəziyyətə olan münasibəti digərlərindən dərhal fərqlənir. COVID-19 pandemiyası ilə bağlı yaranmış vəziyyət bu fikri bir daha təsdiq etdi. Fikrimizin daha aydın olması üçün kiçik bir müqayisə aparaq.

Dünya pandemiya ilə bağlı həyəcanlı günlərinə başlayanda bir sıra erməni KİV-ləri və ermənipərəst media qurumları çox utandırıcı və qəbuledilməz şayiələr yaymağa başladılar. Onlar Türkiyəni "dünyaya turizm soyqırımı"na hazırlaşmaqda ittiham etməyə başladılar. Yaxşı ki, bu çirkin və böhtançı təbliğat kampaniyasının qarşısını Rusiyanın informasiya portalı aldı. Məqaləni dərhal səhifəsindən sildi. Lakin artıq aydın görünürdü ki, qərəzli, xəbis, ancaq özünü düşünüb başqasına nifrət əsasında cəfəng iftiralar uydurmaq izində olanlar hətta dünyanı bürüyən böyük fəlakətlər zamanı belə öz alçaq əməllərindən əl çəkmək istəmirlər.

Bəs Ermənistan dövlət olaraq pandemiya şəraitində nə etdi? Faktlar göstərir ki, bu forpost dövlət öz məhdud və eqoist mövqeyində qalır. Bir tərəfdən, Türkiyədən yardım istəyir, digər tərəfdən, xilas yolunun Rusiyada olduğunu söyləyir, o biri tərəfdən isə, qonşu dövlətlərə qarşı qarayaxma kampaniyası aparmaqda davam edir. Öncə bəyan etdilər ki, vəziyyət çox pisdir, sonra dedilər ki, ermənilər təşvişə düşmürlər, çünki nəyin nə olduğunu yaxşı bilirlər (guya başqa heç kim bilmir), son olaraq isə hay saldılar ki, "Sergey Şoyqu Ermənistana gəlib Rusiya ordusunun pandemiya ilə mübarizədə "erməni dostları"na nə yardım edə biləcəyini deyəcək".

Bunlar özünü müstəqil, demokratik və güclü sayan bir ölkənin pandemiyaya reaksiyasının bir qismidir. Görünür ki, Ermənistanın dövlət və cəmiyyət olaraq pandemiya vəziyyətinə hazırlığı sıfırdır. Xaotik reaksiyalar, yenə də başqalarını ittiham etmək psixoloji düşkünlüyü, sistemli və konkret olaraq heç bir addım ata bilməmək vərdişi özünü bir daha göstərdi. Yəni Ermənistan dünyanın pandemiya ilə mübarizəsində yoxdur və heç bir addımı ilə fərqlənmədi.

Bunun fonunda Azərbaycan dövləti növbəti dəfə sübut etdi ki, müstəqil və suverendir. Azərbaycan rəhbərliyi yüksək fəallığı ilə pandemiya ilə mübarizədə dünya miqyasında özünün nümunəyə çevrilən fəaliyyətini nümayiş etdirdi. Konkret addımları, təşəbbüsləri və təklifləri ilə. Maraqlıdır ki, bu prosesdə Azərbaycan həm də böhranlı vəziyyətdə insanların kollektiv (bəşəriyyət) olaraq hansı üsullarla birgə mübarizə aparmaq formullarını da təqdim etdi. Bu fikrin təsdiqi konkret faktlardadır.

Pandemiya prosesinin dünyanı ciddi surətdə silkələdiyi, böyük təbəddülatlar yaratdığı, qeyri-müəyyən mənzərə formalaşdırdığı aprel ayının əvvəllərində Azərbaycan Prezidenti qlobal miqyasda çox səmərəli və humanist bir təşəbbüslə çıxış etdi. İlham Əliyev aprelin 10-da Türk Şurasının fövqəladə Zirvə görüşünü çağırdı və orada dünyanı pandemiyaya qarşı mübarizədə həmrəyliyə, birgə əməkdaşlığa dəvət etdi! Təkrar edək ki, bu, regional təşkilat miqyasında dünyada ilk nümunə idi. Türk Şurasının üzv dövlətləri və müşahidəçi statusunda olanlar xoşniyyətli əməkdaşlıq və bəşəriyyətin təhlükəsizliyi üçün həqiqi mübarizə aparan təşkilatın böhranlı vəziyyətdə necə hərəkət etməli olduğunu bütün dünyaya nümayiş etdirdilər. Bu gözəl ideyanın müəllifi, reallaşmasının təşəbbüskarı Azərbaycan Prezidenti idi!

Beynəlxalq aləmdə dərhal İlham Əliyevin bu istiqamətdəki fəaliyyətinə və səmərəli təşəbbüslərinə qiymət verildi. Məsələn, Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Baş direktoru Tedros Adhanom Qebreyesus Azərbaycan Prezidentinin milli, regional və qlobal səviyyələrdə çoxtərəfli diplomatiyaya və həmrəyliyə dəstəyini nümunəvi adlandırıb. Azərbaycanın dövlət başçısına ünvanladığı məktubda COVID-19-a qarşı mübarizədə gördüyü qabaqlayıcı tədbirləri yüksək qiymətləndirdiyini ifadə edib.

## Böhrandan xilas və sonrakı mərhələ: İlham Əliyevin səmərəli formulları

T.Qebreyesus tam haqlı idi. Çünki Azərbaycan Prezidenti pandemiya dönəmində atdığı davamlı addımları ilə qətiyyətli, ardıcıl və humanist məqsədli siyasət yeritdiyini nümayiş etdirdi. Belə ki, Azərbaycanda pandemiya ilə mübarizədə dövlət başçısı insan amilini, vətəndaşın sağlamlığını rəhbər tutduğunu və bununla bağlı sistemli fəaliyyət göstərdiyini təsdiqləməklə yanaşı, beynəlxalq səviyyədə də fəallığına davam etdi. Məhz İlham Əliyevin təşəbbüsü ilə may ayının 4-də Qoşulmama Hərəkatının Təmas Qrupu formatında videokonfrans vasitəsilə koronavirusla mübarizəyə həsr olunmuş "COVID-19-a qarşı birlikdəyik" mövzusunda zirvə görüşü keçirildi.

Bu tədbirə dünya siyasi dairələrinin verdiyi qiymət onda iştirak edənlərin siyahısından aydın görünür. BMT Baş Assambleyasının sədri, Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru və Afrika İttifaqı Komissiyasının sədri zirvə görüşünə qatıldı. BMT Baş katibi və Avropa İttifaqının ali nümayəndəsi sammitdə videomüraciətlə çıxış etdi. Bunlar, şübhəsiz ki, Azərbaycan Prezidentinə və onun təşəbbüslərinə beynəlxalq miqyasda göstərilən böyük dəstək və rəğbəti ifadə edir.

Bütün bunlara dünyanın ən qüdrətli dövlətləri də laqeyd qalmadılar. Azərbaycandan şöləlenən və bütün dünyaya əməkdaşlıq, xeyirxahlıq, insanlığı xilas etmək cəsarəti yayan təşəbbüslərə Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp da münasibət bildirdi. O, Prezident İlham Əliyevə göndərdiyi məktubda ayrıca vurğuladı ki, "koronavirus pandemiyası ilə üzləşdiyimiz bir vaxtda Birləşmiş Ştatlar Azərbaycan xalqının yanındadır"! Respublika Günü münasibəti ilə yazılmış bir yığcam məktubda ABŞ Prezidentinin məhz koronavirus pandemiyasında Azərbaycanla həmrəy olduğunu vurğulaması ölkə başçısının həmin istiqamətdəki təsirli addımlarına reaksiyadır. Yəni bütün dünya Azərbaycanın bu fəaliyyətini izləyir, ona dəstək verir.

Bunların fonunda Azərbaycan rəhbərliyinin qlobal miqyasda fəaliyyətinin çoxşaxəliliyi üzərində ayrıca dayanılmalı olan fakt təsiri bağışlayır. Belə ki, may ayının 15-də CISCO şirkətinin təşəbbüsü ilə Azərbaycan Prezidenti İlham Əliyevlə bu şirkətin icraçı vitse-prezidenti və baş maliyyə direktoru xanım Kelli Kramer, vitse-prezidenti Qay Ditrix və CISCO rəhbərliyinin digər nümayəndələri arasında videokonfrans keçirildi. Xatırladaq ki, CISCO ABŞ-ın və dünyanın yüksək texnologiyalar sahəsində ixtisaslaşmış ən nüfuzlu şirkətlərindəndir. Şirkət 1984-cü ildə qurulub. Korporativ şəbəkələr üçün avadanlıqların istehsalı ilə məşğul olur. Şirkət müxtəlif ölkələrlə, o cümlədən Azərbaycanla əməkdaşlıq edir. Bu şirkət Azərbaycanın Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və "ASAN xidmət"lə yaxından əməkdaşlıq edir.

Bunlardan başqa, CISCO-nu Azərbaycanla "Ağıllı şəhər", "Əlaqələndirilmiş Mərkəzi Avtobus Dayanacağı" pilot layihə konsepsiyası, "Ağıllı kənd təsərrüfatı" kimi layihələr və kibertəhlükəsizlik məsələlərini səmərəli şəkildə həyata keçirmək istiqamətində layihələr bağlayır. Əlbəttə, Azərbaycanın bu cür nüfuzlu və müasir texnologiyalar sahəsində yeri olan bir şirkətlə əməkdaşlığı əlamətdar hadisədir. CISCO ilə keçirilən videokonfransda xüsusi qeyd edildi ki, dövlət başçısının təşəbbüsləri təkcə regionda deyil, dünya miqyasında da yüksək dəyərləndirilir. Deməli, Azərbaycan Prezidentinin son təşəbbüsləri pandemiya dönəmində birgə fəaliyyətin təşkili ilə yanaşı, pandemiya sonrası qlobal əməkdaşlığın daha səmərəli və müasir texnologiyaların mərkəzi yer tutduğu bir model axtarışları baxımından da çox əhəmiyyətlidir.

Bu deyilənlər bir daha göstərir ki, Azərbaycan dövləti humanizmə, əməkdaşlığa, insan amilinə yüksək qiymət verən və bunu fəaliyyətində daim təsdiqləyən müstəqil və suveren bir dövlətdir! Prezident İlham Əliyev bütün dünyanı ortaq fəaliyyətə gətirə bilən, qlobal əməkdaşlığın yeni modellərini təklif edən və şəxsi fəaliyyəti ilə bu prosesə qiymətli töhfələrini verən yüksək səviyyəli müasir liderdir. Şübhəsiz ki, Azərbaycan Prezidenti bundan sonra da ölkə, region və bütövlükdə dünya üçün çox faydalı olan təşəbbüslər irəli sürəcək!

***Newtimes.az***

# “Dövlətimiz nə qədər güclü olsa...”



*“Ölkəmizdə həyata keçirilən inkişaf strategiyasının başlıca məqsədləri davamlı və yüksək iqtisadi artıma, sosial rifaha nail olmaqdır. Bunun üçün iqtisadiyyatın şaxələndirilməsinin sürətləndirilməsi, qeyri-neft sektorunun yüksək inkişaf tempinin təmin edilməsi, sahibkarlığın dəstəklənməsi, vətəndaşların gündəlik rahat həyatı üçün lazım olan bütün infrastrukturun yaradılması, o cümlədən səhiyyə, təhsil, mədəniyyət, gənclər və idman, əhalinin sosial müdafiəsi sahələrində keyfiyyətli xidmət göstərilməsi kimi başlıca fəaliyyət istiqamətləri reallaşdırılır, genişmiqyaslı işlər görülür.*

Prezident İlham Əliyevin sosial islahatlar proqramının əsas hədəfi dövlət sosial xidmətlərinin innovativ yanaşmalara əsaslanan modern, çevik mexanizmlər üzərində qurulması, xidmətlərdə sosial ədalət, şəffaflıq, ünvanlılıq və bərabərlik prinsiplərinin təmin edilməsidir. Dövlətimizin başçısı İlham Əliyevin Fərmanı əsasında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində DOST Agentliyinin, həmçinin bu günə qədər 3 DOST mərkəzinin yaradılması məhz bu məqsədə xidmət edir. DOST layihəsi Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsünün nəticəsidir”. Bu fikirləri SİA-ya Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, “İki sahil” qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə deyib.

V.Rəhimzadə qeyd edib ki, ölkə Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə 3 saylı DOST mərkəzinin açılışı sosial sahədə görülən işlərin, aparılan islahatların əyani təzahürüdür: “Dövlətimizin başçısı Azərbaycan Televiziyasına müsahibəsində Azərbaycanın sosial xidmət sahəsində əldə etdiyi yeniliklərdən, DOST mərkəzlərinin fəaliyyəti fonunda şəffaflığın təmin edilməsindən, vətəndaş məmnunluğunun artmasından geniş bəhs edərək bildirmişdir ki, vətəndaşların bəyənmə əmsalı 96 faizə çatıb. Burada tətbiq olunan innovasiyalar gələcəyə baxışımızla tam uzlaşır. Çünki innovativ inkişaf həyata keçirilən siyasətin əsas istiqamətlərindən biridir. DOST mərkəzləri məhz bu innovasiyalar əsasında fəaliyyət göstərir və gələcəkdə bu istiqamətdə əlavə addımların atılması da nəzərdə tutulur. Bir sözlə, DOST sosial təminat sahəsində böyük yenilikdir. Azərbaycan bu sahədə də təcrübəsi nümunədir.”

Cari ilin ötən dövrünün statistik rəqəmlərinə diqqət yönəldən baş redaktor vurğulayıb ki, əldə olunan sosial-iqtisadi göstəricilər, sosial sahədə görülən işlər 2019-cu ildə həyata keçirilən tədbirlərin məntiqi davamıdır: “2019-cu il Azərbaycan tarixinə sosial islahatlar ili kimi daxil olub. Ötən ildə təsdiqlənən iki sosial paket əsasında 4,2 milyon insanın sosial rifah halı yaxşılaşıb. Minimum əməkhaqqının təxminən 2 dəfə, minimum pensiyanın 70 faizdən çox artması deyilənlərə bariz nümunədir. Minimum pensiyanın alıcılıq qabiliyyətinə görə bu gün Azərbaycan MDB məkanında lider dövlətdir. Dünyanı bürüyən pandemiyaya (COVID-19) qarşı mübarizə tədbirləri çərçivəsində görülən işlərin əsas mahiyyətində də insanların sağlamlığının təminatı ilə yanaşı, sosial müdafiələrinin gücləndirilməsi, ən əsası bazar iqtisadiyyatının aparıcı qüvvəsi olan sahibkarlara dövlət dəstəyi əsas yer tutub. Belə ki, bu dövrdə dövlət sektorunda fəaliyyət göstərən 900 min insanın əməkhaqqısı tam, özəl sektorda təxminən 700 min insanın maaşının əhəmiyyətli hissəsi dövlət tərəfindən ödənildi. 600 min insana 190 manat sosial yardım verildi. 80 min ailə ünvanlı sosial yardım proqramı ilə əhatə olunur və orta hesabla hər bir ailəyə hər ay 220 manatdan çox vəsait ödənilir. 90 min ödənişli ictimai iş yerlərinin açılması nəzərdə tutulub. Özünüməşğulluq proqramında 12 min insan əhatə olunur. Möhtərəm Prezidentimiz İlham Əliyev 2020-ci ilin birinci rübünün yekunlarına həsr olunan videokonfrans şəklində müşavirədə hec bir sosial layihənin təxirə salınmayacağını bildirmişdir. Qeyd olunan statistika artıq bu tezisin reallıqda öz əksini tapdığını təsdiqləyir”.

V.Rəhimzadə bildirib ki, 2019-2025-ci illərdə 31 DOST mərkəzinin istifadəyə verilməsinin nəzərdə tutulması Azərbaycanın yeniliklərə imza atan dövlət kimi mövqeyini daha da möhkəmləndirəcək. “ASAN xidmət”, ABAD, DOST kimi sosial layihələrin davamlı olacağı şübhəsizdir. İqtisadi tərəqqi, artan maliyyə imkanlarımız güclü sosial siyasətlə müşayiət olunur.

Baş redaktor onu da vurğulayıb ki, dövlətimizin başçısı İlham Əliyev daim çıxışlarında bildirir ki, biz xalq üçün çalışırıq, qururuq, yaradırıq, ölkəmizi gücləndiririk. Biz istəyirik ki, Azərbaycan qüdrətli dövlətə çevrilsin. Dövlətimiz nə qədər güclü olsa, insanlar da özlərini o qədər rahat hiss edəcək, təhlükəsizlik şəraitində yaşayacaqlar.

“Pandemiya dövründə Azərbaycan təcrübəsinin dünyada təqdir olunması da inkişaf modelimizin nümunəviliyindən irəli gəlir” söyləyən V.Rəhimzadə qeyd edib ki, cənab İlham Əliyevin müsahibədə vurğuladığı kimi, bu müddətdə Azərbaycan yalnız ölkə daxilində deyil, beynəlxalq səviyyədə də davamlı tədbirlərin keçirilməsinə nail olub: “Ölkə Prezidentinin təşəbbüsü ilə Türk Şurasının və Qoşulmama Hərəkatının videoformatda Zirvə görüşlərinin keçirilməsi Azərbaycanın birlik, həmrəylik çağırışlarını əməldə təsdiqlədiyinə sübutdur. Azərbaycan bu günə qədər 13 ölkəyə və 3 beynəlxalq təşkilata yardım göstərib”.

Baş redaktor uğurlarımız fonunda bu əminliyi də ifadə edib ki, Azərbaycan koronavirus pandemiyasından az itki ilə çıxacaq, postpandemiya dövründə yeni inkişaf modeli ilə dayanıqlı inkişaf təmin ediləcək, əhalinin sosial müdafiəsi daha da gücləndiriləcək, ölkəmiz uğurlu sosial dövlət imicinə daha yeni-yeni əlavələr edəcək”.

# “DOST Mərkəzi, ASAN Xidmət kimi sosial layihələr dünyada brend olaraq dəstəklənir”



***“Növbəti DOST mərkəzinin açılışı vətəndaşa xidmət reallığı ilə yanaşı, həm də özündə intellektual uğuru da bariz şəkildə əks etdir”.SİA xəbər verir ki, bu fikirləri Olaylar.az-a “SƏS” qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin Bakının Nizami rayonunda yerləşən 3 saylı DOST mərkəzinin açılışında iştiraklarını şərh edərkən deyib.***

Onun sözlərinə görə, Prezident İlham Əliyev daim öz çıxışlarında vurğulayıb ki, vətəndaş maraqlarının yüksək səviyyədə təmnatı və xidməti amili dövlətin prioritet vəzifəsidir: “Məhz bu istiqamətdə dəyə biləcək ki, əldə olunan sosial uğurlar sahəsində fəaliyyət göstərən ASAN Xidmətlər, DOST kimi mərkəzlər birbaşa Azərbaycan vətəndaşının maraqlarının yüksək səviyyədə təmin olunması üçün yaradılıb. O cümlədən, bu xidmətlər sayəsində vətəndaşların hökumət qurumları arasındakı təmasları azalır, bürokratik əngəllər aradan qaldırılır. Habelə, nəzərə alarsaq ki, ölkəmizdə korrupsiya və rüşvətxorluğa qarşı ardıcıl, davamlı mübarizə aparılır, bu zaman belə xidmət və mərkəzlərin fəaliyyətinin səmərəliyi, vacibliyi daha çox nəzərə çarpır. Yəni fakt budur ki, Azərbaycanda əhalinin sosial-rifah halının yüksəldilməsi, sosial məsələlərin həlli, həssas qrupların hərtərəfli dövlət qayğısı ilə əhatə olunması istiqamətində görülən işlər cənab İlham Əliyevin daim diqqəti mərkəzindədir.O cümlədən, son illərdə icra olunan sosial islahatlar proqramının əsas hədəfi dövlət sosial xidmətlərinin innovativ yanaşmalarıdır ki, bu müxanizm də artıq özünü isbatlayıb. Bu baxımdan, hesab edirəm ki, belə bir əhəmiyyətli faktorların hər birinin təməlində Prezident İlham Əliyevin qətiyyətli siyasəti ilə yanaşı, həm də intellektual tərəqqi, intellektual uğur faktoru da dayanmaqdadır. Əbəs deyil ki, ölkə başçımız Prezident seçildiyi ilk gündən vurğulamışdı ki, dövlətin əsas məqsədlərindən biri də, neft kapitalının insan kapitalına çevrilməsindən ibarət olacaq. Göründüyü kimi, artıq digər vədlərlə yanaşı, verilmiş bu vəd də kifayət qədər öz təsdiqini tapır”.

“Qürurverici məqamlardan biri də budur ki, Azərbaycanın dünyaya brend kimi təqdim etdiyi bu kimi layihələr yüksək şəkildə dəstəklənir, öyrənilir və tətbiq olunur”, deyən Bəhruz Quliyev həmçinin bildirib ki, bu, nümunəvi etalonun beynəlxalq aləmə ixracı kimi də dəyərləndirilə bilər: “Əbəs deyil ki, artıq Avropanın bir sıra aparıcı ölkələri də sözügedən sistemdən faydalanmaq üçün məhz Azərbaycan modelindən yararlanırlar, deyim ki, böyük uğurlar da əldə edirlər”.

Baş redaktor sonda onu da qeyd edib ki, bu kimi məsələlərdə gənclərin aktivlik nümayiş etdirməsi, onların bu kimi mərkəzlərdə könüllülük prinsipi ilə fəaliyyətləri Azərbaycanın daha sağlam, daha keyfiyyətli kadr potrensialı olaraq yetişmələrinə geniş şərait yaradır: “Düşünürəm ki, Prezident İlham Əliyevin açılış zamanı gənclərin rolunu həmişə çox yüksək qiymətləndirdiyini xatırlatması, eyni zamanda, Azərbaycan gənclərinin ölkəmizin uğurlu inkişafında öz fəal rolunu oynadıqlarını vurğlaması da həmin fikirlərin nə qədər uğur tandeminə söykəndiyini isbatlayır. Əgər bu gün gənclər cəmiyyətimizin ən fəal təbəqəsi olaraq qiymətləndirilirsə, bu gün həmin nəslə geniş imkanlar, şəraitlər yaradılırsa, onlar bir sıra mühüm vəzifələrə cəlb edilirlərsə, demək həmin uğurlar qarşıda növbəti uğurların əldə edilməsi üçün cığırlar açmış olur”.

**Rövşən**

# İtaliya mətbuatı: Azərbaycan Ermənistanı küncə sıxışdırır




İtaliyanın “La Verita”, “L’Antidiplomatico”, “Sardegnagol”, “CIVG”, “Giornale Diplomatico” kimi kütləvi informasiya vasitələrinin saytlarında Azərbaycanın İtaliyadakı səfiri Məmməd Əhmədzadənin yazıları dərc olunub. SİA-nın verdiyi məlumata görə, yazılarında diplomat həmin kütləvi informasiya vasitələrinin bəzilərində Azərbaycanın işğal olunmuş ərazilərində keçirilmiş qondarma “seçkilər”, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə təhrif olunmuş və qərəzli məlumatları əks etdirən yazılara cavab olaraq münaqişənin tarixi-hüquqi aspektləri, işğal olunmuş ərazilərimizdəki vəziyyət, orada keçirilmiş qondarma “seçkilər”in qeyri-qanuniliyi, onların beynəlxalq ictimaiyyət tərəfindən pislənilməsi, beynəlxalq təşkilatlar tərəfindən münaqişə ilə bağlı qəbul edilmiş sənədlər, münaqişənin nizamlanmasına dair aparılan danışıqlar prosesi və bu xüsusda Azərbaycanın mövqeyi barədə məlumat verib.

Həmçinin İtaliyanın “Babilon magazine” və “Un mondo d’Italiani” online qəzetlərində də italyan jurnalist Domeniko Letizianın “Dağlıq Qarabağ: Azərbaycan Ermənistanı küncə sıxışdırır” və “Dağlıq Qarabağda seçkilər: Azərbaycan Ermənistanı küncə sıxışdırır” başlıqlı məqalələri dərc olunub. Məqalələrində italyan jurnalist Azərbaycanın işğal olunmuş ərazilərində keçirilmiş qondarma “seçkilər”in qeyri-qanuniliyinə diqqəti yönəldərək, həmin “seçkilərin” beynəlxalq ictimaiyyət tərəfindən sərt şəkildə tənqid edildiyini bildirib. Məqalələrdə jurnalist Rusiyanın xarici işlər naziri Sergey Lavrovun münaqişənin mərhələli həlli ilə bağlı fikirlərinə münasibətdə Ermənistanın xarici işlər naziri Zöhrab Mnatsakanyanın açıqlamasına cavab olaraq Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun fikirlərinə geniş yer ayırıb. Məqalələrdə jurnalist Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi təcavüzün ağır nəticələrindən də danışıb, habelə koronavirus epidemiyası ilə bağlı yaranmış mürəkkəb vəziyyətin iqtisadi çətinliklərdə boğulan Ermənistandan münaqişə ilə bağlı mövqeyini dəyişdirməsini və beynəlxalq təşkilatların sənədlərinə hörmət etməsini tələb etdiyini vurğulayıb.

Yazılarla aşağıdakı keçidlərdən tanış olmaq mümkündür: https://www.laverita.info/in-nagorno-karabakh-larmenia-viola-il-diritto-internazionale-2645980365.html https://www.lantidiplomatico.it/dettnews nagorno_karabakh_lettera_dellambasciatore_della-zerbaigian_mammad_ahmadzada-_a_lantidiplomatico/82_34744/

# “Ölkə üzrə 31 DOST mərkəzinin yaradılması təmin ediləcək”

“Azərbaycan Respublikası Prezidentinin hər zaman bəyan etdiyi kimi ölkədə həyata keçirilən siyasətin mərkəzində vətəndaş amili dayanır. Bu mənada ölkə başçısı tərəfindən ölkəmizdə sosial sahəyə daim diqqət göstərilir. 2018-ci ildən başlayaraq Prezident İlham Əliyev tərəfindən ölkəmizdə çox ciddi islahatlar apekti həyata keçirilir. Bu islahatlar paketinin məqsədində də bilavasitə vətəndaşların sosial rifahının gücləndirilməsi, onların gəlirlərinin artırılması, məşğulluğunun təmin olunması durur”. SİA-nın xəbərinə görə, bu fikirləri əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev deyib.

O bildirib ki, həyata keçirilən tədbirlər çərçivəsində ölkə başçısı sosial sahədə şəffaflığın yaradılması, idarəetmənin təkmilləşdirilməsi, əhaliyə göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi ilə bağlı məsələləri əsas prioritet istiqamət kimi bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə tapşırmışdı: “Bu tədbirlərin icrası ilə bağlı ölkə başçısı tərəfindən 5 avqust 2018-ci il tarixində Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agaentliyinin yaradılması ilə bağlı qərar qəbul edilmişdi.



Qeyd edək ki, DOST Agentliyinin və yerlərdə fəaliyyət göstərən DOST mərkəzlərinin yaradılması təşəbbüsünün müəllifi Azərbaycanın Birinci Vitse-prezidenti Mehriban Əliyevadır. Məhz Onun bu sahəyə göstərdiyi diqqəti sayəsində nazirlik tərəfindən qısa müddət ərzində nizamnamənin, strukturunun hazırlanması eyni zamanda DOST mərkəzlərində xidmətlərin göstərilməsi ilə bağlı hüquqi çərçivənin hazırlanması və qəbul olunması təmin edilib. 2019-cu il 9 may tarixində Prezident İlham Əliyevin və Birinci xanım Mehriban Əliyevanın iştirakı ilə ilk DOST mərkəzinin və agentliyinin açılış mərasimi baş tutdu”.

Nazir müavini söyləyib ki, DOST Agentliyi və mərkəzlərinin yaradılmasında məqsəd sosial sahədə əhaliyə göstərilən xidmətlərinin təkmilləşdirilməsindən ibarətdir: “Bu sahədə əhaliyə operativ və tam şəffaf şəkildə xidmətin göstərilməsi vacib şərtlərdən biridir. DOST konsepsiyası hazırlanarkən, əsas rəhbər tutulan prinsiplər əhalinin xidmətlərdən rahat şəkildə faydalanmasıdır. DOST modelində həm əlillik, pensiya, məşğulluq, əmək məsələləri, sosial sığorta və digər məsələlərlə əlaqədar “bir pəncərə” sistemi əsas götürülüb. DOST mərkəzlərinin əsas məqsədi əhaliyə sosial sahədə ən yüksək səviyyədə xidmətlərin göstərilməsidir”.

2 DOST Mərkəzinin 2019-ci ildə fəaliyyətə başladığını xatırladan A. Əliyev qeyd edib ki, onlardan biri Yasamal, dogəri isə Xəzər rayonunda fəaliyyət göstərir: “3-cü mərkəz Nizami rayonunda fəaliyyətə başlayıb. Nizami, Sabunçu və Suraxanı rayon sakinləri bu xidmətlərdən yararlana biləcəklər. Artıq mərkəzlər tərəfindən 100 mindən artıq şəxsə xidmət göstərilib. Əhalinin mərkəzlərin fəaliyyəti ilə bağlı məmnunluq səviyyəsi 96 faiz üzərindədir. Nazirlik tərəfindən hazırlanan konsepsiyaya görə ölkə üzrə 31 DOST mərkəzinin yaradılması təmin ediləcək. Bu mərkəzlərdə 130-a yaxın sosial sahədə xidmətlər təqdim olunacaq. Onların məqsədi vətəndaşlara xidmətlərin operativ və şəffaf rejimdə təmin olunmasıdır”.

Nazir müavini vurğulayıb ki, mərkəzlərin fəaliyyətinə böyük həcmdə gənclər, könüllülər cəlb olunub: “ Sosial sahədə həyata keçirilən çox ciddi innovasiyalar məhz bu mərkəzlər üzərindən həyata keçirilir. Ümumilikdə DOST mərkəzləri ən qabaqcıl təcrübəyə əsaslanan infrastruktur şəklində hazırlanaraq əhaliyə sosial sahədə ən yüksək səviyyədə xidmətlərin göstərilməsi təmin edilib”.

*Nailə Məhərrəmova*

# Koronavirusa görə işçiləri işdən çıxaranlar cəzalandırılacaq



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti pandemiya ilə əlaqədar elan olunmuş karantin dövründə “Əmək müqaviləsi bildirişi” altsistemi üzərindən gündəlik nəzarət həyata keçirir. Nazirlikdən SİA-ya verilən məlumata görə, məqsəd işçilərin əsassız yerə işdən çıxarılmasının, ixtisarının qarşısının alınmasıdır. Bununla bağlı olaraq, Xidmət altsistem vasitəsilə dəfələrlə işəgötürənlərə izahat, məlumat, xəbərdarlıq və tövsiyə xarakterli ismarıclar, bildirişlər göndərib.

Bununla belə, nəzarət zamanı son günlər ayrı-ayrı işəgötürənlər tərəfindən karantin dövründə (mart və aprel aylarında) altsistemdə qeydiyyata alınmış əmək müqavilələrinin bir qisminə xitam verildiyi, hətta bəzən bağlanmış əmək müqaviləsinə bir gün və ya bir neçə gün sonra xitam verildiyi müşahidə olunub.

Bu kimi halların təhlili aparılarkən bəzi işəgötürənlərin karantin dövründə vətəndaşları evdən çıxaraq sərbəst hərəkət etmələrinə şərait yaratmaq məqsədilə müvafiq icazəni almaq üçün onlarla bağlı reallığa uyğun olmayan əmək müqaviləsi bildirişlərini sistemə daxil etdiklərinə dair şübhələr yaranıb.

Səlahiyyətlərindən sui-istifadə etməklə əslində nəticə etibarilə karantin qaydalarının pozulmasına, pandemiyanın yayılmasının qarşısının alınması üçün aparılan işlərə manеə yaradan həmin işəgötürənlərin əməllərinə hüquqi qiymət verilməsi üçün onlarla bağlı toplanmış məlumatlar hüquqmühafizə orqanlarına göndərilib.

Dövlət Əmək Müfəttişliyi Xidməti bir daha bütün işəgötürənlərə xəbərdarlıq edir ki, mövcud şəraitdən sui-istifadə edərək işçilərin əsassız yerə işdən çıxarılmasına, ixtisarına yol verən, həmçinin karantin dövründə şəxslərin sərbəst hərəkətini təmin etmək məqsədi ilə “Əmək müqaviləsi bildirişi” altsisteminə yanlış məlumat daxil edən işəgötürənlərlə bağlı qanunvericiliyə uyğun məsuliyyət tədbirləri görüləcək.

# Baş Prokurorluq: Nazirliyin sabiq əməkdaşı həbs edildi

Azərbaycan Respublikasında dövlət strukturlarının əhalinin sağlamlığının qorunması və aidiyyəti sahələr üzrə xidməti fəaliyyətin təşkili istiqamətində səfərbər olunduğu bir vaxtda bəzi vəzifəli şəxslərin mövcud vəziyyətdən öz maraqları naminə istifadə edərək, vətəndaşların və dövlətin qanunla qorunan mənafelərinə zərər vuran, hakimiyyət orqanlarının işinə kölgə salan hüquqazidd əməllərə yol vermələrinə dair məlumatlar əsasında araşdırmalar aparılmaqla qanunamüvafiq tədbirlər həyata keçirilir.



Azərbaycan Respublikası Baş Prokurorluğundan SİA-ya verilən məlumata görə, Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi (ƏƏSMN) yanında Dövlət Sosial Müdafiə Fondunun Nəsimi rayon şöbəsinin sabiq əməkdaşı Ramiz Seyidəliyevin qanunsuz əməlləri barədə vətəndaşın daxil olmuş müraciəti Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırılıb. Araşdırma zamanı Ramiz Seyidəliyevin qulluq mövqeyindən istifadə edərək vətəndaşın pensiya məbləğinin artırılmasına kömək edəcəyi vədi ilə aldadaraq pensiya kartını qanunsuz olaraq götürməklə 2013-2018-ci illər ərzində həmin kartdan ümumilikdə 83 min manat məbləğində pul vəsaitini ələ keçirməsinə əsaslı şübhələr müəyyən edilib.

R.Seyidəliyev Cinayət Məcəlləsinin 178.3.2 (qulluq mövqeyindən istifadə etməklə küllü miqdarda dələduzluq) və 29, 178.3.2-ci (dələduzluğa cəhd) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib. Hazırda iş üzrə qeyd olunan qanunsuz halların tam və hərtərəfli araşdırılmaqla zərərçəkmiş şəxslərin dairəsinin müəyyənləşdirilməsi istiqamətində zəruri istintaq tədbirləri davam etdirilir. Qeyd olunan qanunazidd hallarla üzləşən zərərçəkmiş şəxslərdən Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin “161” nömrəli “Qaynar xətt” əlaqə mərkəzinə zəng etmələri xahiş olunur.

## Bu şəxslər məsuliyyətə cəlb olunmayacaq



Başqa ölkə vətəndaşlığını qəbul edən Azərbaycan vətəndaşı Dövlət Miqrasiya Xidmətinə məlumat vermədiyi üçün məsuliyyətə cəlb olunmayacaq. SİA-nın məlumatına görə, bunu Dövlət Miqrasiya Xidmətinin rəisi Vüsal Hüseynov bu gün keçirilən onlayn brifinqdə deyib.

Onun sözlərinə görə, mövcud qanuna əsasən Azərbaycan vətəndaşı digər ölkə vətəndaşlığını qəbul edəndə, 1 ay müddətinə DMX və ya xaricdəki səfirliyə məlumat verməlidir: “Bununla bağlı Prezidentin təşəbbüsü ilə parlamentdə qəbul edilən qanun layihəsi var. Qanunvericiliyə görə, məlumat verməyəndə həmin şəxs barəsində sərt cinayət məsuliyyəti nəzərdə tutulurdu. Ancaq yeni qanuna görə, bu məsuliyyət aradan qaldırılır. Qanun qüvvəyə mindikdən sonra gec məlumat verən şəxslər bu barədə rahat ola biləcəklər”.

## ÜST açıqladı: Koronavirus heç vaxt yox olmaya bilər

Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) Covid-19 epidemiyasına səbəb olan virusun endemik hala gələ biləcəyini açıqlayıb. SİA bunu xarici KİV-lərə istinadən xəbər verir. Virusun nə vaxt bitəcəyini proqnozlaşdırmağın doğru olmadığını deyən təşkilat QİÇS-ə səbəb olan HİV virusu kimi Covid-19 səbəb olan virusa qarşı peyvənd tapılsa belə, əsla yox ola bilməyəcəyini vurğulayıb. Epidemiyanın qarşısını almaq üçün “sıx səylərin” davam etdirilməli olduğunu bildirən ÜST-nin təcili yardım mütəxəssisi Mayk Rayan, “Bunu masaya qoymalıyıq. Bu virus cəmiyyətlərimizdə bir endemik hala gələ bilər və heç vaxt yox olmaya bilər” deyib. Doğru deməyin vacibliyinə işarə edən ekspert, “Bu xəstəliyin nə vaxt bitəcəyini heç kim deyə biləcəyini düşünmürəm. Düşünürəm ki, bu sahədə veriləcək sözlər və tarixlər yoxdur. Xəstəlik uzunmüddətli bir problemə də çevrilə bilər və ya əksinə” deyə bildirib.

# Erməni xalqının qorxulu kabusu - Paşinyan

## Sarkisyanın aqibəti Paşinyanın da başında çatlayacaq

***"Əgər parlament fraksiyası məni seçməsə, heç kimi seçməyəcək. Baş nazirin seçiləcəyi gün bütün erməni xalqı meydanda olacaq. Qoy, xalqın iradəsini yerinə yetirməməyə çalışsınlar", Bu sözləri 2018-ci ildə Ermənistanın baş naziri Nikol Paşinyan deyib. Serj Sarkisyanın 10 illik prezidentliyi Ermənistan xalqının yaddaşında qorxulu bir kabus kimi həkk olunsa da, bu kabusu indi də Nikol Paşinyan yaradır. Ermənistanla bağlı proqnozlar özünü tam doğrultdu. Bu belə də olmalı idi. Çünki istər Paşinyan, istərsə də Sarkisyan eyni düşüncəyə malik olan Ermənistan xalqının yaddaşında qorxulu bir kabus kimi həkk olunub, olunacaq.***



Və növbəti kabus isə Ermənistanda son günlər baş verənlər də bunu təsdiqləyir. Belə ki,





Paşinyanın babası Nikol Paşinyanın nasist hakimiyyəti ilə əməkdaşlıq etdiyi barədə rüsvayçı faktı təsdiqləyən sənədlər ətrafında əsl qalmaqal yaranıb. Belə ki, erməni saytı Yerevan.today bildirir ki, Böyük Vətən Müharibəsi zamanı vəfat etmiş və itkin düşmüş Sovet hərbçiləri haqqında məlumatları özündə cəmləşdirən ümumiləşdirilmiş elektron məlumat bankı - Memorial, Ermənistan hökuməti başçısının yaxın qohumunu ifşa edən məlumat və sənədləri təsdiqləyib. Orada göstərilir ki, Ermənistanın Tavuş rayonunun Yenokovan kəndindən olan yeganə Nikol Paşinyan 1943-cü ildə Alman Vermaxtının erməni legionunda sıravi rütbəsi ilə Qırmızı Orduya qarşı döyüşlərdə ölüb.

Həmçinin, müstəqil erməni KİV-ləri, Memorial-da olan və baba Nikol Paşinyanı ifşa edən arxiv sənədlərini dərc etdilər. Eyni zamanda, erməni müxalifəti hökumət başçısını babası haqqında yalanlar yaymaqda ittiham edir, çünki faşizm üzərində Qələbənin 75-ci ildönümü ərəfəsində N.Paşinyan böyük Nikol Paşinyanı nasistlərlə döyüşlərdə həlak olan Qırmızı Ordunun döyüşçüsü kimi təqdim etdi. Sonradan məlum oldu ki, böyük Paşinyan həqiqətən də II Dünya Müharibəsində vuruşub və döyüş meydanında həlak olub, ancaq Qırmızı Ordu əsgəri formasında yox, faşist geyimində.

### Paşinyan faşistlərdən fərqlənmədiyini bir daha ortaya qoydu

Nə həqiqəti, nə də tarixi faktları saxtalaşdırmaq olmaz. Çünki həqiqət gec-tez üzə çıxır, tarix də tarixində qalır. Nikol Paşinyan hələ hakimiyyətə gəlməmişdən İrəvan küçələrində təşkil etdiyi mitinqlərdə səsləndirdiyi daşnak lozunqları ilə faşistlərdən fərqlənmədiyini ortaya qoymuşdu. Hakimiyyətə gəldikdən sonra da öz sələflərinin siyasətini davam etdirməklə, faşizm ideyalarına sadiqliyini sübut etmiş oldu. Və bu gün Paşinyan Hitlerin yaxın silahdaşı Qaregin Njdeyə ucaldılmış abidəyə haqq qazandırmaqla bir daha faşizm xislətini nümayiş etdirdi. Bunu, işğal olunmuş Azərbaycan torpaqlarının azad olunmaması və hər vəchlə danışıqlardan yayınması da, bir daşa Paşinyanın faşistlərdən fərqlənmədiyini göstərir. Digər bir fakt isə Paşinyanın babasının nasist hakimiyyəti ilə əməkdaşlıq etməsidir. Göründüyü kimi, müasir siyasətdə geniş tətbiq olunan ikili standartlar bu məsələdə də tətbiq olunur. Faşist elə faşistdir və paşinyanlar kimi. Və faşist xisləti ilə ölkə iqtisadiyyatını böhrana sürükləyən Paşinyan heç də Serj Sarkisyan iqtidarından geri qalmır. "Aykakan Jamanak" qəzeti yazır ki, Sarkisyan hakimiyyəti dövründə olduğu kimi, Paşinyan hökumətinin yalan vədlərinin boş və mənasız olduğunu artıq anlayır və sadəcə xalqı aldatdığını aydın görürlər.



Bir sözlə acınacaqlı siyasi situasiya ilə üzləşən N.Paşinyan necə deyərlər Ermənistanı iflasdan iflasa sürükləməklə yanaşı, növbəti faşist xislətini nümayiş etdirdi.

### Prezident İlham Əliyev: "İstər tarixin yenidən yazılması, istərsə də faşizmin qəhrəmanlaşdırılması qətiyyən yolverilməzdir"

Qeyd edək ki, Azərbaycan Prezidenti İlham Əliyev Ermənistanın baş naziri Paşinyanın faşist xislətli olduğunu dəfələrlə bildirib. Dövlət başçısı Rusiyanın "Natsionalnaya oborona" ("Milli müdafiə") jurnalına müsahibəsində vurğulayıb ki, istər tarixin yenidən yazılması, istərsə də faşizmin qəhrəmanlaşdırılması qətiyyən yolverilməzdir.

Tarix boyu faşist düşüncəsində olanlar istəklərinə nail olmaq üçün ən qanlı üsullara əl atıblar. Ermənilər də eyni ilə faşist üsullarından istifadə edib. Belə ki, bu o ermənilərdir ki, gözlərini qan bürümüş erməni vəhşiləridir ki, günahsız azərbaycanlıları uşaq, qadın, yaşlı demədən diri-diri tonqalda yandırıb, gözlərini çıxarıb, qulaq və burunlarını kəsib, hamilə qadınların qarnını yırtıb, baş dərilərini soyub, divarlara mismarlayıb, diri-diri torpağa basdırıb və başqa dəhşətli işgəncələrlə öldürüblər. Erməni faşizminin ikinci mərhələsi 1918-ci ilin əvvəllərində həyata keçirilib. Həmin ilin 31 martında törədilən soyqırımı bəşəriyyətə, insanlığa qarşı erməni vandalizminin ən bariz təzahürüdür. Genişmiqyaslı qanlı aksiya nəticəsində yüzlərlə yaşayış məntəqəsi yerlə-yeksan edilib, minlərlə azərbaycanlı böyük amansızlıqla və qəddarlıqla qətlə yetirilib. "Böyük Ermənistan" xülyasında olan qaniçən ermənilər planlı surətdə azərbaycanlıların məhv edilməsinə, yer üzündən silinməsinə çalışıblar.

Bir sözlə acınacaqlı siyasi situasiya ilə üzləşən N.Paşinyan necə deyərlər Ermənistanı iflasdan iflasa sürükləməkdədir. Bu faktdır ki, Ermənistanın heç bir sərvəti olmayan, qonşu ölkələrlə iqdisadi potensialı olmayan və nədən qazanıb iqdisadiyyat quracağı bəlli deyil.

Çünki atalı-babalı faşizmin elementləri olan Paşinyanlardan erməni xalqı başqa bir şey görməyəcək. Bəli, Njde faşizmi Hitlerdən, indiki erməni rəhbəri olan Paşinyandan nə gözləmək olar? Yalnız fitnə-fəsad, insanlığa nifrət. Çünki Njdeni qəhrəmanlıq nümunəsi kimi təqdim edilməsi Paşinyanın rəhbərlik etdiyi hökumətin apardığı siyasətin ana xəttini bir daha büruzə verir.

Paşinyanın Njdeyə bəraət qazandırmaq cəhdi bir daha sübut edir ki, Ermənistanın hazırkı rəhbəri bəşəriyyət üçün qorxulu kabus olan faşizmi dəstəkləyir və təbliğ edir. Paşinyanı bu hərəkətlərinə görə artıq siyasi həyasızlıq etalonu adlandırmaq olar. Bu, bir daha sübut edir ki, o, özü və Ermənistan üçün "saatlı bomba" olmaq missiyasını uğurla yerinə yetirir. Prezident İlham Əliyevin noyabrın 26-da Konqres Mərkəzində Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə mərasimdə iştirakı zamanı səsləndirdiyi kimi, Ermənistanda hakimiyyət dəyişə bilər, amma bu ölkənin faşist mahiyyəti dəyişmir".

Bəs, Ermənistanın faşist xislətli rəhbərliyi Paşinyanın düşdüyü labirintdən çıxış yolu varmı? Bəli, var. Bu yolu növbəti dəfə Azərbaycan Prezidenti İlham çıxışlarının birində bildirdi ki, Ermənistanın yeni rəhbərliyi əvvəlki rəhbərliyin səhvlərini təkrar etməməlidir, konstruktiv danışıqlar aparmalıdır, Azərbaycan torpaqlarını işğaldan azad etməlidir. Bəli, bu, Ermənistanın yeganə nicat yoludur. Paşinyan bunun əksini edərsə, Sarkisyanın yolu ilə getmiş olacaq. Sözün bütün mənalarında...

Bir sözlə, Paşinyan ən optimal variantı tapa bilməsə, Ermənistan məhv olacaq. Artıq bü faktın gerçəkliyi göz önündədir...

**A.SƏMƏDOVA**

# ABŞ-ın radio proqramında Donald Trampın Azərbaycan Prezidentinə məktubunun əhəmiyyətindən danışılıb

***ABŞ-ın nüfuzlu Con Batçelor Şou radio proqramında Azərbaycanın ABŞ-dakı səfiri Elin Süleymanov və Corctaun Universitetinin professoru Brenda Şefferin müsahibəsi yayımlanıb.***

AZƏRTAC xəbər verir ki, müsahibənin əsas mövzusu ABŞ Prezidenti Donald Trampın Azərbaycanın Respublika Günü ilə bağlı Prezident İlham Əliyevə ünvanladığı təbrik məktubu olub.

Əvvəlcə jurnalist regionda və ölkəmizdə koronavirus pandemiyası ilə bağlı vəziyyətə dair məlumat verib, ölkəmizin virusla mübarizə üçün tibbi avadanlıq və lazımi texnologiyaya malik olmasından bəhs edib. Daha sonra Azərbaycan xalqını Respublika Günü münasibətilə təbrik edib və ABŞ Prezidenti Donald Trampın məktubunu dinləyicilər üçün səsləndirib. Jurnalist Azərbaycanın regionda sülh və tolerantlıq nümunəsi olduğunu qeyd edib.

Prezident Trampın məktubunun əhəmiyyətini qeyd edən səfir E.Süleymanov bildirib ki, burada Azərbaycanın suverenliyi və müstəqilliyinə güclü dəstək ifadə olunması Azərbaycanın regionun sözün əsl mənasında suveren və müstəqil ölkəsi kimi tanındığının daha bir göstəricisidir. Bütün dünya ölkələrinin çətinliklərlə üzləşdiyi bir dövrdə Tramp administrasiyasının beynəlxalq münasibətlərin vacib aspektlərinə fokuslanması və Azərbaycanla tərəfdaşlığı dəyərləndirməsi təqdirəlayiqdir. Terrorizmlə mübarizə, enerji şaxələndirilməsi, təhlükəsizlik, daha yaxşı cəmiyyətin qurulması sahəsində 30 ildir davam edən Azərbaycan-ABŞ əməkdaşlığı və bu sahədə gələcəyə inam olduqca vacibdir məsajdır.

Jurnalist Azərbaycanın vacib geostrateji ərazidə yerləşməsinə toxunaraq, ABŞ-ın ölkəmizi hər





zaman kömək əlini uzadan, regionda sülhə can atan tərəfdaş kimi görməsinə diqqət çəkib. O, Prezident İlham Əliyevin Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə görüşü zamanı ABŞ-ın Silikon Vadisində yerləşən CİSCO beynəlxalq rabitə şirkətinin vasitələrindən istifadə etməsinə, həmçinin Qoşulmama Hərəkatının və Avropa İttifaqının onlayn görüşləri zamanı bu texnologiyaya üz tutulmasına toxunub. Professor Şeffer Prezident D.Trampın məktubunun onun əsl müttəfiqlərə dəyər verən daha geniş siyasətinin tərkib hissəsi olduğunu bildirib, Azərbaycanın ABŞ üçün hər zaman güvənilən tərəfdaş olduğunu qeyd edib. B.Şeffer ölkəmizin regionun sürətlə inkişaf edən ölkəsi olmasını və bir sıra ölkələrdə sərmayələr yatırmasını müsbət dəyərləndirib. O, Türk Şurası ölkələri arasında əməkdaşlığın regiondaxili inteqrasiyadan xəbər verdiyini diqqətə çatdırıb.

Səfir Süleymanov Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarovun ATƏT-in Minsk qrupunun həmsədrləri ilə keçirilən onlayn görüşünə toxunaraq pandemiyanın davam etdiyi dövrdə belə Azərbaycanın sülh cəhdlərinin davam etdiyini bildirib. Ölkəmizin hər zaman sülhün tərəfində olmasına, regional tərəfdaşlığı təşviq etməsinə baxmayaraq, Ermənistanın davamlı olaraq təkliflərdən imtina etməsi və özünü təcrid yolunu seçməsinə toxunub, Ermənistanın etnik streotiplərə söykənən siyasətindən əl çəkmədiyini qeyd edib.

Müsahibənin tam versiyası ilə https://audioboom.com/posts/7586296-potus-trump-embraces-azerbaijan-and-the-search-for-peace-in-nagorno-karabakh-profbshaffer-fdd internet səhifəsindən tanış olmaq mümkündür.

---


"ŞAMAXI SƏRNİŞİN" ATSC-nin 31 DEKABR 2019-Cİ İL TARİXİNƏ MÜHASİBAT BALANSI.

| Bölmə, maddə №-si | | Hesabın №-si | Manatla |
|---|---|---|---|
| | **AKTİVLƏR** | | |
| **I** | **Uzunmüddətli aktivlər** | | |
| 11 | Torpaq, tikli və avadanlıq | 111-112+103 | 32748 |
| 19 | Sair uzunmüddətli aktivlər | 19X | 20654 |
| | Cəmi uzunmüddətli aktivlər | | 53402 |
| **2** | **Qısamüddətli aktivlər** | | |
| 20 | Ehtiyat hissələri | 20X | - |
| 22 | Pul vəsaitləri və onların ekvivalentləri | 22X | 7 |
| | Cəmi qısamüddətli aktivlər | | 7 |
| | CƏMİ AKTİVLƏR | | 53409 |
| | **KAPİTAL VƏ ÖHDƏIİKLƏR** | | |
| **3** | **Kapital** | | |
| 30 | Ödənilmiş nominal (nizamnamə) kapitalı | 301-302 | 89500 |
| 33 | Kapital ehtiyatları | 33X | 11215 |
| 34 | Bölüşdürülməmiş mənfəət (ödınilməmiş zərər) | 34X-344 | (64179) |
| | Cəmi kapital | | 36536 |
| **5** | **Qısamüddətli öhdəliklər** | | |
| 52 | Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 52X | 16873 |
| | **Cəmi qısamüddətli öhdəliklər** | | 16873 |
| | **Cəmi öhdəliklər:** | | 16873 |
| | CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR: | | 53409 |

"ŞAMAXI SƏRNİŞİN" ATSC-nin 31 DEKABR 2019-Cİ İL TARİXİNƏ TƏSƏRRÜFAT MALİYYƏ FƏALİYYƏTİNİN NƏTİCƏSİ (MƏNFƏƏT VƏ ZƏRƏR)

| Sıra №- | Maddələr | Manatla |
|---|---|---|
| | Gəlirlər | |
| 1. | Avtonəqliyyat xidmətindən | 8630 |
| 2 | Sair əməliyyat gəliri | - |
| | Cəmi gəlir | 8630 |
| | Xərclər | |
| 1. | Əmək haqqı | 4967 |
| 2. | DSMF-yə ayrım | 1085 |
| 3. | Vergi ödəmələri | 986 |
| 4. | Amortizasiya xərcləri | 5525 |
| 5 | Sair xərclər | 1582 |
| | Cəmi xərc: | 14145 |
| | Əsas fəaliyyətin məticəsi -Ziyan | 5515 |
| | Ümumi nəticə -Mənfəət | 5515 |

"Şamaxı Sərnişin" ATSC-nin idarə heyyətinin sədri: Nəhmətov M.Ə.


## "Fors-major dövründə belə ölkəmizin ayaqda qalmasını alqışlayırıq"



***"Fors-major dövründə belə ölkəmizin ayaqda qalmasını, bu böyük bəladan çox az itki ilə çıxmasını alqışlayırıq". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin Əmək və sosial siyasət komitəsinin üzvü deputat Jalə Əliyeva Prezident İlham Əliyevin 3 saylı DOST mərkəzinin açılışında iştirakını və səsləndirdiyi fikirləri şərh edərkən deyib.***

Onun sözlərinə görə, Prezident İlham Əliyevin mərkəzin açılışı zamanı səsləndirdiyi fikirlər ölkədə son dövrlər ərzindən görülən işlərlə bağlı dolğun məlumat vermiş oldu: "Növbəti DOST xidməti binasının açılışı zamanı Prezident İlham Əliyevin AzTv-yə verdiyi müsahibə də digər müsahibələri və açıqlamaları kimi tarixi bir müsahibə, tarixi bir açıqlama kimi qiymətləndirilməlidir. Azərbaycan bütün dünyaya Prezident İlham Əliyevin timsalında, onun dünənki müsahibəsinin timsalında bir daha sosial yönümlü bir ölkə olduğunu, hər bir vətəndaşının dövləti üçün, dövlət başçısı üçün çox böyük bir dəyər kəsb etdiyini və görülən bütün işlərin, atılan bütün addımların Azərbaycan insanının rifah halının yüksəldilməsinə, Azərbaycan insanının dövləti ilə daha sıx təmas qura bilməsinə yönələn addımlar olduğunu nümayiş etdirdi".

Millət vəkili əlavə edib ki, Azərbaycanda ardı-ardına yaradılan DOST mərkəzləri, daha əvvəl açılan "Asan Xidmət" mərkəzləri və digər bu kimi mərkəzlərin hər biri modeldir: "Bunların hamısı dünyaya bir Azərbaycan modelidir və hər biri dünyaya Azərbaycan dövlətinin vətəndaşının yanında olması, vətəndaşının problemləri ilə dərindən maraqlanmasının müsbət bir nümunəsidir və müsbət bir model olaraq da nümayiş etdilir. Əlbəttə ki, bütün görülən işlər üçün, bütün atılan addımlar üçün, xalq naminə, ölkə naminə, vətəndaşlarımız naminə gördüyü bütün ölçüyə gəlmək işləri barədə ölkə Prezidentinə, eyni zamanda, ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya minnətdarlığımı bildirirəm. Xüsusilə də, pandemiya və karantin dövrlərində, həmçinin, fors-major dövründə belə ölkəmizin ayaqda qalmasını, bu böyük bəladan çox az itki ilə çıxmasını alqışlayırıq. Sevinirik ki, məhz, belə bir ölkənin vətəndaşlarıyıq".

# Qabil Məmmədov adlı terror(çuy)a son!

## *Azərbaycan dövləti əleyhinə çıxış edən bu ünsür AXCP və "Milli Şura" tərəfdarıdır*

***Avropada Azərbaycan dövlətinin və xalqının maraqları əleyhinə fəaliyyət göstərən söyüş qruplarında çıxış edən ünsürlərdən birinin - AXCP və "Milli Şura" tərəfdarı Qabil Məmmədovun ifşası, daha dəqiq desək, onun Almaniyadan ekstradisiya olunacağı işlərinə başlanması məsələsi gündəm mövzularından birinə çevrilib. SİA xəbər verir ki, artıq bu barədə Baş Prokurorluq da rəsmi məlumat yayıb.***

Lakin o da bəllidir ki, o nəinki dövlət rəhbərliyi və rəsmilərinin, nüfuzlu ictimai-siyasi xadimlərin nüfuzlarının alçaldılmasına yönəlmiş yolverilməz təhqirlərə yol verib, eləcə də Azərbaycanda mövcud olan sabitliyə, inkişafa, xalq-dövlət birliyinin dayaqlarına xələl vurmaq məqsədi ilə terror hazırlıqları üçün müxtəlif düşmən cinahları ilə əlbir olub, maliyyələşmə və s. kimi məsələlərdə əsas tərəf kimi çıxış edib, habelə ayrı-ayrı regionlardan olan vətəndaşlarımıza qarşı ayrıseçkilik törədərək, separatçı fikirlər də səsləndirib.

**Onun həmfikirlərinin kimlər olması, daha dəqiq desək, hansı təşkilatlarda yer almaları da maraq doğurur...**

Rəsmi məlumatdan da məlum olur ki, Q.Məmmədov əvvəllər konkret cinayət əməllərinə görə məhkum olunmuş həmfikirləri və havadarları ilə qabaqcadan əlbir olduğu qrupda gizli təşkilatlanıb Azərbaycanda ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq, dövlət hakimiyyət orqanları tərəfindən qərar qəbul edilməsinə təsir göstərmək məqsədilə terror aktları törətmək üçün sosial şəbəkələr vasitəsi ilə çoxsaylı video-çıxışlarında çağırışlar edib. Bu ünsür eyni zamanda özünə tərəfdar bildiyi və dəstək verəcəklərini güman etdiyi həmfikirlərinə müraciətlər edərək, silahlanıb mümkün kütləvi aksiyaların gedişində ölkəmizin hakimiyyət orqanlarının yüksək vəzifəli şəxslərini, o cümlədən ictimai asayişi qoruyan polis əməkdaşlarını qətlə yetirmək, onların evlərini yandırmaqla terrorçuluğun törədilməsinə yönələn açıq dəvətlər səsləndirib. Bu zaman onun həmfikirlərinin kimlər olması, daha dəqiq desək, hansı təşkilatlarda yer almaları da maraq doğurur...



**AXCP sədri Əli Kərimlinin cangüdəninə təlimatları kim verə bilər?**

Yəni sözügedən məsələnin daha bir tərəfi budur ki, Q.Məmmədovun çağırışları əsasında hərəkət edənlər bilavasitə AXCP-"Milli Şura" tərəfdarlarıdırlar. O da əbəs deyil ki, bu məsələdə AXCP sədri Əli Kərimlinin cangüdəni - Niyaməddin Əhmədovun da adı hallanır. Məsələn, rəsmi məlumatdan bir daha məlum olub ki, Q.Məmmədov N.Əhmədova müxtəlif üsullarla göndərdiyi pul vəsaitləri göndərib. Məhz bu faktlar təfsilatlı şəkildə məlum olduqdan sonra axtarışda olan Q.Məmmədova Cinayət Məcəlləsinin müvafiq maddələri ilə ittiham elan olunmaqla onun Azərbaycan Respublikasına ekstradisiyası üzrə müvafiq hüquqi prosedurlar həyata keçirilir. Artıq belə də nəticəyə gəlmək olar ki, Ə.Kərimlinin cangüdəni hər halda özbaşına qərarlar verməyib və ona tapşırıqlar, təlimatlar verilib. O da mümkündür ki, N.Əhmədovun Q.Məmmədovla işbirliyi bağlarını məhz Ə.Kərimli bərkidib. Və...

**Gültəkin Hacıbəylinin "zoom" toplantıda "sentyabrda hakimiyyətə gəlirik" iddiası altında hansı gizlinlər dayanıbmış?**

Və məsələnin daha bir tərəfini də xatırlatmaq yerinə düşərdi. Belə ki, "Milli Şura"nın ictimailəşən "zoom" toplantılarının birində qurumun koordinasiya mərkəzinin üzvü Gültəkin Hacıbəyli digər iştirakçılara xitabən bildirib ki, onlar pessimist olmamalıdırlar, çünki sentyabrda hakimiyyətə gəlməyə hazırlaşırlar və s. Məhz bu iddia ətrafında analiz apararkən, belə bir nəticəyə gəlmək olar ki, əslində onlar bilavasitə Q.Məmmədovla iş birliyindədirlər və eyni zamanda, AXCP sədri Ə.Kərimlinin cangüdəninin məlum məsələyə görə saxlanılması da sözügedən hadisələrin tərkib hissəsidir. Düzdür, G.Hacıbəyli və "Milli Şura"nın, AXCP-nin funksionerləri zaman-zaman Q.Məmmədovun onlara heç bir aidiyyatının olmadığını desələr də, görünən budur ki, bu kimi cəhdlər sadəcə fikir yayındırmağa hesablanan addımlardır. Daha doğrusu, onlar bu kimi pərdələnmə vasitə ilə guya baş verənlərdən xəbərdar, yaxud aid olmadıqlarını sərgiləməyə cəhd göstərirlər. Ancaq dəlillər bir daha göstərir ki, sözügedən məsələdə radikalçılıq, dağıdıcılıq və terrorçuluq, anarxistlik prinsipləri üzərində fəaliyyət göstərən istənilən addım ifşa olunur, bu ifşaların altından isə AXCP və "Milli Şura" tərəfdarlarının çıxması təəccüb doğurmur. Fəqət, göründüyü kimi, artıq bütün kartlar açılıb, hadisələr bütün çılpaqlığı ilə üzə çıxır və dövlət maraqları əleyhinə çıxış edən ünsürlər öz layiqli cəzalarını alacaqlar.

***Rövşən RƏSULOV***

---

# "Gültəkin Hacıbəyli özünün aşağılanmasını qəbul edir"



***"Milli Şura"nın məlum biabırçı video konfransından sonra qurumun üzvləri Eldəniz Quliyev və Rafiq Manaflı "Milli Şura"dan istefa verdilər. Təbii ki, artıq "Milli Şura"nın növbəti parçalanması kimi qiymətləndirmək olar. "Azadlıq Hərəkatçılar Birliyi"nin sədri Təhmasib Novruzov "Səs" qəzetinə açıqlamasında bildirdi ki, Eldəniz Quliyev Azərbaycan ictimaiyyətində kifayət qədər tanınmış fiqurdur: "Mən onu siyasətçi adlandırmıram, çünki siyasətin əlifbasından belə xəbəri yoxdur. Ancaq ziyalı zümrəsində bir zamanlar hörmətə, izzətə layiq bir adam olub. Məncə belələrinin siyasət dünyasına baş vurmasında elə bir qəbahət olmazdı, əgər reallıqlara real gözlə baxmağı bacarsaydı. Təəssüf ki, o da Cəmil Həsənli kimi elmi fəaliyyətini, yaradıcı fəaliyyətini atıb girdi siyasət quyusuna və bu quyunun dərinliyində necə azıbsa, ha çabalayırsa çıxmağa yol da tapa bilmir.***

Onun "Milli Şura" adlanan millilikdən çox uzaq bir qurumda olması, özlüyündə utancverici fakt idi. Ən azı siyasi oyunlardan baş çıxarmasa da, məramı gün kimi aydın olan belə bir təşkilata üzv olmaq Azərbaycan ziyalısı adına yaraşmır. Hər halda ruslaırn məşhur deyimi var, heç olmamasındansa, gec olması yaxşıdır. Bu baxımdan Eldəniz bəyin gec də olsa gerçəyi görüb həmin qeyri-milli bir qurumdan ayrılması, düşünürəm ki, müsbət haldır. Qaldı bu istefanın həmin qurumun növbəti parçalanmasının işarəti olmasına, məncə bu qurum de-fakto yoxdur. Təşkilat, qurum, birlik, adı nə olursa olsun eyni düşüncəyə malik insanların birgə fəaliyyəti kimi xarakterizə olunur. Haqqında danışdığınız o biabırçı onlayn konfrans isə bir daha göstərdi ki, belə bir qurum sadəcə fondur, xaricdən pul əldə eləmək üçün bir vasitədir. Bütöv olmayan bir şeyin isə parçalanmasından danışmağa dəyməz".

"Videokonfransda tərəflər bir-birini satqınlıqda, xəyanətdə günahlandırdılar və Gültəkin Hacıbəyli sərt şəkildə əqidə dostlarına qarşı ittihamlar irəli sürdü. Bu qarşılıqlı ittihamlar daha da dərinləşəcəyini demək olar" sualına cavab olaraq T.Novruzov bildirdi ki, "Milli Şura" adlandırdıqları bu başa belə toplumda qarşılıqlı ittihamlar yaranandan bu günə qədər olub, var və hər zaman da olacaq: "Çünki hansısa əqidə, məslək naminə deyil, pul, mal, mülk naminə yaranan istənilən toplumda belə qarşıdurmaların olması qaçılmazdır. Gültəkin Hacıbəyli Milli Məclisin deputatı olanda hamını bu iqtidar ətrafında sıx birləşməyə çağırırdı. Elə ki, bunu deputat seçmədilər, döndü oldu bu iqtidara düşmən. Və bu da xalqın gözləri qarşısında baş verdi. Bütün mübarizəsini şəxsi mənafelər üzərində quran birinin cəmiyyətə hansı xeyri dəyə bilər? Cəmiyyətə xeyir verməyi düşünməyən birinin isə istənilən toplumda aşağılanması qaçılmazdır. Əslində Gültəkin Hacıbəyli özünün aşağılanmasından əsəbləşdi və ittihamlar, bəzən hətta təhqirlər səsləndirməkdən çəkinmədi. Təbii ki, onun bu ittihamlarına həmin konfransda bəzi reaksiyalar verildi. Amma ən ciddi reaksiyalar zaman-zaman veriləcək .Ən azı əgər haqlarında ittihamlar səsləndirilən həmin siyasətbazların az-çox qrurları varsa, bu baş verməlidir. Bu baxımdan qarşılıqlı ittihamların daha da dərinləşəcəyini deməyə tam əsas var".

"Sizcə, "Milli Şura" da baş verən qarşıdurmalar Əli Kərimlinin hazırladığı bir layihə ola bilər" sualına cavab olaraq T.Novruzov bildirdi ki, Bunu deməyə əlimdə konkret əsas yoxdur. Amma Əlini yaxşı tanıdığımdan, dabbaxdakı dəfələrlə dəyişən və yığılıb qalan gönünə yaxşı bələd olduğumdan istisna da etmirəm: "Bu adam həyatı boyu qurmağa, yaratmağa, birləşdirməyə meyli olmadığını əməlləri ilə ortaya qoyub. Onun ən yaxşı bacardığı iş məhz dağıtmaqdı, uçurmaqdı, parçalamaqdı. Azərbaycanın Azadlığı uğrunda mübarizənin öncülü olmuş Azərbaycan Xalq Cəbhəsini, Əbülfəz Elçibəyin vəfatından sonra neçə hissələrə parçaladığı gözümüz önündə baş verib. Ona görə, bu "parçalanma oyunu"nda da onun əli olduğunu deməyə yetərincə arqument var. Ola bilsin ki, bu başabəla toplumun xaricdən nəsə maliyyə əldə etmək imkanı yaranıb və həmin maliyyəni ələ keçirmək üçün Əli belə bir oyun qura bilər. Öyrəşmişə tövbə yoxdu, deyib atalar. Bu adam da parçalamağa öyrəşmiş adamdı. Parçalamasa dözə bilməz. Ola bilsin ki, növbəti parçalama ssenarisini "Milli Şura" adlanan qurum üzərində yazıb".

***Gülyana***

# Əli Kərimli Cəmil Həsənlinin “dalından” necə dəydi?

## *Onun “Milli Şura”nın müqəvva sədrini uzaqlaşdırmaq planları bəlli oldu*

***AXCP sədri Əli Kərimlinin özünü müxalifətin “vahid lideri” kimi təqdim etməsi üçün hətta ən yaxın çevrəsini belə qurban verməsi kimsəyə sirr deyil. Təkcə hazırkı dövrə qədər istər AXCP-nin, istərsə də “Milli Şura”nın cinahlarından səsli-küylü istefaları, verilən bəyanatları xatırlayarsaq, Ə.Kərimlinin hansı məqsədlərə xidmət etdiyinin bir daha şahidləri olarıq.***



Ancaq o da sirr deyil ki, “Milli Şura” yaranan dövrdən başlayaraq, AXCP sədri bu qurumun sükanını öz əlində saxlamaq üçün dəridən-qabıqdan çıxırdı. Rüstəm İbrahimbəyovun sədrliyi fiaskoya uğradıqdan sonra quruma Cəmil Həsənlinin sədr seçilməsi də əslində Ə.Kərimlinin maraqlarına cavab vermirdi. Düzdür, o özünün əsas düşməni - Müsavat partiyasının sabiq başqanı İsa Qəmbərin “Milli Şura”dan uzaqlaşmasına nail olsa da, C.Həsənli kartından öz maraqları üçün istifadə edərək, “liderlik” missiyasını dolayı yollarla özü icra etmək imkanını qazandı. Əbəs deyil ki, bir çoxları “Milli Şura”nın dirijoru olaraq məhz Ə.Kərimlini görür, C.Həsənlini isə sadəcə, müqəvva sədr olaraq tanıyırlar.

### “Milli Şura”nın sədrlik postunu rəsmən öz adına yazmağa çalışır

Digər tərəfdən, AXCP sədri C.Həsənlinin arxa planda qalması üçün dəfələrlə cəhdlər göstərib. Məhz bu gün də eyni hal davam edir. Məsələ həm də ondadır ki, artıq radikal düşərgənin kuluarlarında C.Həsənlinin ABŞ-dan bir daha geri qayıtmayacağı barədə söhbətlərə start verilib. Bu söhbətlərin əsasını isə bilavasitə AXCP sədri qoyub. Yəni bu mövzunu ortaya atmaqla, “Milli Şura”nın sədrlik postunu rəsmən öz adına yazmağa çalışır. Hətta C.Həsənlinin 8 aydır ki, ABŞ-da oturub, “siyasət” aparması, okeanın o tayından “Milli Şura”nın virtual toplantılarına qatılması da əslində Ə.Kərimlinin əlinə oynayan kart kimi qiymətləndirilə bilər.

Yeri gəlmişkən, daha bir məqam budur ki, hazırda Ə.Kərimlinin sədrlik postunu zəbt etməsi marağını dəstəkləyənlər də virtual toplantılarda qatılan “Milli Şura”nın koordinasiya şurasının üzvləridirlər. Çox yəqin ki, cəbhəçilərin sədri onlara da müəyyən öhdəliklər boyun olub. Əbəs deyil ki, bu gün “Osmanqızı tv”, “Azərbaycan saatı” və s. internet üzərindən yayımlanan sifarişli canlı yayımların əsas, hətta gündəlik “siması” Ə.Kərimlidir. Bu adam demək olar ki, günaşırı şəkildə həmin verilişlərə çıxır, yalnız AXCP sədri kimi deyil, həm də “Milli Şura”nın adından, qərarlarından danışır, bu vasitə ilə C.Həsənlini uzaqlaşdırır.

### Eldəniz Quliyev: “Cəmil Həsənli çox güman ABŞ-dan qayıtmayacaq”

Daha bir ilginc məqam budur ki, bəlli ittihamları ilə “Milli Şura”dan istefa verən Eldəniz Quliyev də C.Həsənlini ittiham edib və onu qorxaqlıqda suçlayıb və çox yəqin ki, buna görə hətta “Milli Şura”da olmasa belə, AXCP sədri Ə.Kərimlidən “mükafatını” alacaq. Belə ki, C.Həsənlinin əqidə mutasiyasına uğradığını deyən E.Quliyev keçmiş sədrinin ABŞ-dan, ümumiyyətlə, qayıtmayacağına da eyham vurub: “Böyük bir siyasi təşkilatı pultla idarə etməzlər. Bu mənzərə eksentrik görünür. Gərək gedəndə vəzifəsini kiməsə tapşırardı. Bizə hər gün təzyiq edirlər, polislər məni iki dəfə saxlayıb, cərimə olunmuşam, rəhbər ABŞ-da oturub öz kefindədir. Cəmil Həsənli ABŞ-a hansısa proqram xətti ilə gedib, bir kitabı da çıxıb. Artıq ritorikası da dəyişib, iqtidara qarşı sərt, radikal çıxışlar edir. Burada olanda çəkinirdi. Cəmil Həsənli çox güman ABŞ-dan qayıtmayacaq”.

Əhməd Oruc: “Bu qurumun fəxri sədri Rusiyada, hüquqi sədri Amerikada, amma real sədri Əli Kərimli Azərbaycandadır”

Göründüyü kimi, Ə.Kərimlinin C.Həsənliyə qarşı başlatdığı uzaqlaşdırma kampaniyası onun istədiyi kimi gedir. Hətta bu məsələni “Milli Şura” təmsil olunmayan “Azadlıq” partiyasının sədri Əhməd Oruc da mətbuata açıqlamasında bildirib. “Cəmil bəy Amerikaya getdikdən sonra ritorikasında xeyli sərtləşib”, deyən müxalifət partiyasının sədri eyni zamanda ona görə ölkəyə qayıtmağa tərəddüd etdiyini bildirib. “Bu qurumun fəxri sədri Rusiyada, hüquqi sədri Amerikada, amma real sədri Əli Kərimli Azərbaycandadır”, deəyn Ə.Oruc əslində nəyinnecə olduğuna kifayət qədər eyham vurub.

Bütün bu olaylardan bu cür nəticə hasil etmək olar ki, artıq Ə.Kərimli də “Milli Şura”nın hər hansı bir uğura imza atmayacağını, hətta ölü qurum olmaqla yanaşı, fiaskoya uğrayacağını dərk edir. Amma “müxalifətin vahid lideri” adını əldə etmək üçün, ona hətta ölü qurum da bəs edir. Təki C.Həsənlini tezliklə uzaqlaşdırsın və sonradan “Milli Şura”nın buraxıldığını elan edərək, yeni adda özünün sədri olduğu növbəti azömürlü qurum yaratsın.

**Rövşən RƏSULOV**

## “Gültəkin Hacıbəylinin Qabil Məmmədovun terror çağırışları ilə bağlılığı var”



“Azərbaycan prezidentli respublikadır və hakimiyyətə gəlmək üçün prezident seçkilərini udmaq lazımdır”. Bu fikirləri SİA-ya Azərbaycan Naminə Alyans Partiyasının (ANAP) sədri Abutalıb Səmədov “Milli Şura”nın “zoom” toplantısı zamanı qurumun koordinasiya mərkəzinin üzvü Gültəkin Hacıbəylinin “sentyabrda hakimiyyətə gəlməyə hazırlaşıram” iddiasını və bunun ardınca AXCP sədri Əli Kərimlinin cangüdəni Niyaməddin Əhmədovun Almaniyadan ekstradisiyası gözlənilən Qabil Məmmədovla əlaqəsi, habelə terrorçuluq ittihamı ilə bağlı fikirlərini şərh edərkən deyib. Onun fikrincə, Gültəkin Hacıbəylinin iddiasının Qabil Məmmədovun terrorçuluq çağırışları ilə bağlılığı var.

ANAP-nın sədri eyni zamanda hesab edir ki, əgər seçkilər 2025-ci ildə nəzərdə tutulubsa, demək sentyabrda hakimiyyətə yalnız çevriliş yolu ilə gəlmək olar, bunun başqa bir izahı da yoxdur: “Ona görə də hesab edirəm ki, Gültəkin Hacıbəylinin iddiası müvafiq orqanlar tərəfindən çox ciddi şəkildə araşdırılmalıdır. Çünki 2020-ci ilin sentyabrında qanuni yolla hakimiyyətə gəlmək imkanları yoxdur. Deməli, qeyri-qanuni yolla hakimiyyətə gəlməyə ümid etmək olar və görünür ki, həmin bəyanatı verən də məhz bu məsələ ilə əlaqədar iddia irəli sürüb. Bu ehtimal özünü kifayət qədər doğrulda bilər və ayrı variantı da yoxdur. Çünki seçki yoxdursa, bunlar necə hakimiyyətə gələcəklərini düşünürlər? Şübhəsiz ki, qeyri-qanuni yollarla...”.



**RƏFİQƏ**

# 27 il çənə müxalifətin xisləti

Qəribə sözdür? Bəlkə də... Ancaq 27 ildir ki, müxalifətin çənəsi dayanmaq bilmir. Elə boş-boş hay-küy salaraq, həyasızcasına utanmadan kütləvi aksiyalar keçirməklə çənələrinə güc verirlər. Koronavirus zamanında da “evdə qal”a əməl etməyən radikal müxalifətin əsas satqın viruslarından olan Əli Kərimli, Cəmil həsənli, Gültəkin Hacıbəyli və... bu fərdlər yenə də çənələrinə güc verərək sosial şəbəkələrdə “evdə qalla mübarizədə mitinq” deyə qışqırsalar da səslərini ancaq özləri eşidirdi. Belə bir deyim var: “çox danışma çənən çıxar”. Hardaydı o gün. Ancaq o qədər həyasızdırlar ki, çənələri çıxanda da başlayırlar əlqol atmağa. Oturub bir anlığa müxalifət düşərgəsinin keçdiyi uğursuz və biabırçı yola nəzər yetirdikdə, öz-özümə fikirləşirəm, üzü padoj buna deyirlər. Qınamayın məni, təhqir etmirəm. Sözümün canı var. Belə ki, bəlli olan reallıq budur ki, bu o radikal müxalifətdir ki, 27 ildir ki, yarandığı gündən etibarən mövcud iqtidarla baş-başa gəlməyi bacarmayıb. Ona rəqib, alternativ ola bilməyib. Yəni nə ağıl, nə siyasi resurs, nə də səmimiyyət mövzusunda. Bu günə qədər müxalifət adına sıralanan bütün biabırçı, rüsvayçı məğlubiyyətlərin də səbəbi məhz budur. Durum dünən də dəyişməyib, bu gün də, sabah da dəyişməyəcək. Və dağıdıcı müxalifətin eyni adlı estafeti bu gün də davam etməkdədir. Özü də ünvansız bir yol boyunca. Və bu gün bu başıpozuq satqın dağıdıcı düşərgə “liderləri” çətinə düşəndə də başlayırlar hansısa əndrabadi bir qurum yaratmağa və həmin ölü qurumda başgirləməyə. Bunu görə-görə gəlmişik: “SİDSUH”-dan tutmuş ta üzü bəriyə qədər, məsələn “Milli Şura”ya qədər...

Səbəb yalnız budur! Bəli, artıq bir şey qalmayıb. Odur ki, adı ciddi olmayan qurumların fəaliyyətindən də ciddi nəsə gözləməyə dəyməz. Ayrıca düşünmək olar ki, adlarındakı hərf sayı üzvlərinin sayından daha çox olan partiyalar daha yaxşı olar yarı yoldan qayıdıb abırlarına, varsa, sıxılsınlar abırlarına. Sıxıla da bilməzlər. Çünki AXCP, Müsavatözlərini cırtdan partiyaların “böyük” və “ağır” “abiləri” hesab edirlər. Prosesə bu qədər tez qoşulmağı da olmayan reputasiyalarına sığışdırmırlar, vəssalam. Səbəb yalnız budur!

Bu o satqın və xainlərdir ki, bir qəpiyə belə satıb, satılırlar. Sonra da başlayırlar qurşaqdan aşağı nə qədər xoruz səsəi eşidilməyən söyüşlər söyməyə. Daha doğrusu, qarşıda hələ Əli Kərimlinin Cəmil Həsənli başda olmaqla “Milli Şura” ilə uzun müddətdən bəri çəkilməmiş qalan haqq-hesab var...Bax, budur, müxalifət “liderləri”nin simaları. Məğlubiyyət bu satqınların qabiliyyətinə, istəyinə, səmimiyyətinə, gücünə tam adekvat olan bir yekundur. Və ən gülünc məsələ ondadır ki, 5-10 nəfərin iştirak etdiyi uğursuz, biabırçı məğlubiyyət qarşısında həyasızcasına deyirlər ki, “bu müxalifətin kütləviliyidir”. Həyasızlığın son həddi buna deyilir. Bu yerdə soruşmaq lazımdır, “ay boş bardağı dolu çanağa vuran ölü müxalifət” bunların “kütləvi” olması üçün adam da yoxdur axı. Sual olunur, hansı kütlə və ya hansı kütləvilikdən söhbət gedir? 27 ildir ki, 2müxalifətçiyəm” deyə-deyə uğursuz yol gedirsiniz, nə əldə etmisiniz? Nifrət! Mənəviyyatsız, əxlaqsız erməni qulbeçələri olan Əli Kərimliyə, İsa Qəmbərə, Cəmil Həsənliyə, Arif Hacıya və... yaraşan da elə budur. Bir də, bu fərdlər öz abırına hakim olmasa da, Azərbaycan qanunları öz göstərişlərinə hakimdir və əsla hansısa siyasi qüvvə üçün xüsusi ayrıcalıqlar tətbiq etməyib. Hər bir siyasi qüvvənin mövcudluğuna da, fəaliyyətinə də bərabər təminatlar yaradıb. Ancaq bu koronavirus zamanında yenə də Əli Kərimli “kor tutuduğunu buraxmadığı” kimi pandemiyay qarşı dövlətin apardığı qanunlara tabe olmaq istəməyərək sosial şəbəkələrdə hay-həşir salaraq evdə qalmağı “dustaq”, ortada qalan Gültəkin Hacıbəyli “konslagerdən xilas olmağın yolu mitinqdir”, müxalifət düşərgəsinin əcinələr yuvası olan “Milli Şura”-nın “ipli kuklası” qoca “professor” Cəmil Həsənli “virusa aludə olmaq yox, mitnqə çıxmaq” kimi “nəhəng” bəyanatlar verir ki, düşünürsən və deyirsən, belə getsə, bunlar “vot-vot” koronanı da “hop edəcəklər”. Daha onlara deyən yoxdur ki, ay filankəs... sən hələ kimliyini bilir, sonra da başla... Ancaq birdən düşünürsən ki, belə səviyyəsiz, savadsız və satqınlardan bundan savayı nə gözləmək olar? Sən hara, koronavirusla bağlı “siyasət aparmaq” hara...Çünki onların əsas amalı xalqın bu virusa düçar olması deyil, məhz daha çox gəlir əldə etmək, Conlara, Devidlərə etdikləri nökərçiliyə görə qrantdan-filandan qazanıb cibişdana ötürsünlər. İndii də koronavirusla mübarizədə yumuşalmanın baş verdiyini zamanda sosial şəbəkələrdə hay-həşir salaraq “bu gün ev dustağı olanlar hamılıqla öz hüquqlarınızı əldə etmək üçün mitinqlərə çıxmalıyıq” çağırışlarını görəndə, matım-qutum quruyur. Savadsız buna deyərlər. Əlbəttə ki, xəyanət, satqınlıq, iblis xisləti ilə erməni lobbisinin, anti-Azərbaycan dairələrin xidmətçisi kimi 27 il ərzində çıxış edən Əli Kərimli, Cəmil Həsənli və...kimi iblis xislətlilər belə olub, bundan sonra da belə olacaqlar. Necə deyərlər “qozbeli qəbir düzəldər”. Və belə satqın və mənəviyyatsızlar koronavirusa qarşı mübarizə olaraq karantin qaydalarına əməl etmək üçün “evdə qal” kampaniyasının aparıldığı, həminn evdə oturduğu bir vaxtda özünün evdə qalmağını “ev dustaqlığı”, “ev konslageri” kimi qələmə verərək və bu qanunları pozduğuna görə məsuliyyətə cəlb olunan şəxsləri “koronovirus məhbusları” elan edən ruhunu şeytana satan erməniqulbeçələrinin nə demək istədikləri bəllidir.

Ancaq bu satqın və müalicəsi mümkünsüz olan Vətən əxlaqından, milli mənlik şüurundan, məntiq və zəka gücündən məhrum olan, xalqa və milli dövlətçiliyin qəsdinə duran bu “ruhunu şeytana satan” xəyanətkar viruslar bilməlidirlər ki, gec-tez öz layiqli cəzalarını alacaq, istəklərinə çata bilməyəcəklər. Bax, bunu zaman göstərəcək.

# Erməni tarixşünaslığında Gürcüstan tarixinin saxtalaşdırılması: Guya Qafqazda təkcə ermənilər yaşamışlar

***Bir sıra onilliklər ərzində erməni tarixşünaslığındakı erməni-gürcü tarixi münasibətlərinin bəzi məsələləri araşdırılaraq qərəzli şəkildə işıqlandırılır. Erməni katolikosu Yakov (1655-1680-ci illər) 1667-ci ildə öz arzusunu gizlətmədən yazmışdır: "1658-ci ildə Şərqi Gürcüstanın çarı Rostomdan (1634-1658-ci illər) Kvemo (Aşağı) Kartlidəki Naxiduri kəndini verməsini xahiş etdim".***

Ən azı bir kəndi əldə etməyə və hər hansı bir şəkildə gürcü torpağında erməni kilsəsini təsdiqləməyə dair bu çoxdankı arzu çox simptomatikdir. Bu baxımdan 1995-ci ildə həmin Gürcüstanda S. Karapetyan adlı professorun İrəvanda nəşr etdirdiyi xəritə-məlumat kitabçasında necə 650 erməni kilsəsini saydığını (lakin hansı məlumatlar əsasında bu qənaətə gəldiyi bilinmir) təsəvvür edirəm.

Ancaq bu cərəyan təkcə erməni kilsəsi üçün səciyyəvi deyildir: belə ki, bütövlükdə erməni tarixşünaslığı da ayrı-ayrı kilsələr və monastırlardan əlavə, Gürcüstanın bütün ərazilərinin Ermənistana aid olduğunu düşünür.

Buna bənzər bir ənənə, gürcüləri (iberlər) ümumiyyətlə Qafqazın yerli əhalisi hesab etməyən, erməni tarixşünaslığının atası Movses Xorenatsidən (5-ci əsr) irəli gəlir. Bundan əlavə, onun fikrincə, bir növ quqarların "böyük, qüdrətli qəbilə"si tərəfindən işğal olunan "Qafqaz dağlarının qarşısındakı şimal ərazisi" Ermənistanda yerləşir. Doğrudur, bu tayfa erməni qəbiləsinə tabe olsa da, o qədər də erməni tayfası hesab olunmur. Belə çıxır ki, "böyük, qüdrətli qəbilə" əslində Şərqi Gürcüstan çarlığının olar (İ. Çavçavadzenin müvafiq məqalələrinə baxın). XXI əsr üçün isə elə həmin S. Karapetyanın "Cavaxk" adlı kitabını (İrəvan, 2006-cı il, 590 səhifə) əyani sübut olaraq göstərmək olar ki, bu da erməni dilində qədim gürcü diyarının Ermənistanın bir hissəsi olduğuna inandırmaq məqsədi daşıyır (baxmayaraq ki, Moysey Xorenski bu sahənin yalnız bir hissəsini erməni vilayəti hesab edirdi). Lakin ermənilər isə bu torpaqda avtoxtonlardır. Etiraf etmək lazımdır ki, qəzəbli rus təcavüzünün fonunda erməni ziyalılarının bir hissəsinin tərəfindən həyata keçirilən belə bir hücum daha çox şübhəli görünür.

Bu baxımdan tarixi Gürcüstan əhalisinin etnik kimliyi məsələsi də müasir erməni tarixşünaslığında olduqca maraqlı şəkildə işıqlandırılmışdır.

Orta əsrlərdə konfessional mənsubiyyətin və etnik kimliyin bəzən qarışaraq bir-biri ilə üst-üstə düşməsi məlumdur. Belə ki, Qafqazdakı "Kartveli" (gürcü) yalnız etnik gürcü mənasını yox, bəzən qeyri-gürcü əsilli pravoslav mənasını verə bilərdi, necə ki, "Somexi" (erməni) etnik ermənidən başqa, hər hansı bir erməni dininin və s. mənasını verə bilərdi. Müasir

(Kvemo Kartli, yuxarı Cavaxetiya) cənub hüdudlarında yaşayır.

Movses Xorenatsinin konsepsiyası belədir. Müasir erməni tarixşünaslığı onu indiyədək tamamilə ayrı olaraq qeyd edir. Bunun nəticəsidir ki, həm Ermənistanda, həm də nüfuzlu erməni lobbisinin olduğu ölkələrdə nəşr olunan bütün dərsliklərdə, ensiklopediyalarda, tarixi xəritələrdə Gürcüstan Respublikasının cənub hissəsi (hazırda Türkiyə Respublikasının hüdudlarına daxil olan cənub-qərb tarixi hissəsi), onun qədim tarixi əyalətləri - Kvemo Kartli və Cavaxetiya - oxucu kütləsinə tarixən "Böyük Ermənistan"a mənsub olan ərazilər kimi təqdim olunur.

Müasir erməni tarixşünaslığının bu davamlı münasibəti Ermənistan-Gürcüstan tarixi-siyasi qarşılıqlı münasibətlərinin olması ilə dəstəklənir: Ermənistan hakimiyyəti eramızdan əvvəl II əsrdə, IX - X əsrlərdə və 1918-ci ildə Gürcüstan dövlətinin cənub sərhədlərini üç dəfə ələ keçirməyə cəhd etmişdir.

Hazırda erməni tarixşünaslığında baş verənləri hələ XIX əsrdə başlayan və xüsusilə XX əsrin ikinci yarısında güclənən dördüncü (ideoloji) ekspansiya adlandırmaq

*Müasir erməni tarixçilərinin məqalələrini oxuyarkən belə təsəvvür yaranır ki, gürcülər, ümumiyyətlə, mövcud olmamışdır, real olaraq, yalnız - adi ermənilər və qeyri-adi ermənilər - xalkidonitlər var idi ki, onları da nədənsə gürcülər, yəni yunan dilində "iberlər", erməni dilində isə "vratsik" adlandırırdılar.*

erməni tarixçiləri (professorlar V. Arutyunov-Fidanyan və P. Muradyan bu məsələdə xüsusi canfəşanlıq göstərirlər) demək olar ki, qədim erməni və Bizans mənbələrində rast gəlinən "gürcülər" etnoniminə dair bu "düsturu" mütləqləşdirirlər (Bizans mənbələrində "iber", erməni mənbələrində isə "vratsi"); xüsusən də bu əgər məşhur insanlara aid olunursa, onda onu konfessional mənada "pravoslav erməni" kimi şərh edirlər.

Beləliklə də, feodal Gürcüstan birliyinin təşəbbüsçüsü olan David Kurapalat (X əsr) kimi məşhur siyasi xadimlər və mədəniyyət xadimləri (yeri gəlmişkən, XVI əsrin məşhur müsəlman hökmdarı və tarixçisi Şərəf-xan Bidlisi də birbaşa olaraq gürcü adlandırır); məşhur gürcü sərkərdəsi İoann Tornik Çordvaneli (Çorçaneli) - Yunanıstandakı (980-ci il) Afon İber monastırının banisi; Qriqol Bakurianisdze - Bizansın böyük domestiki, Bolqarıstandakı Petritonski (Baçkovski) monastırının banisi (1083-cü il) və s. qeyd etmək olar; bütün bunlar erməni mənbələrinin onları "Vrats Kuropalat" yəni "gürcü Kuropalatı" və ya "vrats azqav" yəni "əslən gürcü" adlandırmasına görə guya onların ermənilər olduğu ortaya çıxdı; gürcü etnonimini (hətta etnik mənsubiyyətin "əslən gürcülər"in olduğu vurğulandığı halda da) isə bütün hallarda, sən demə, konfessional mənada başa düşmək lazımdır.

Belə bir "konsepsiyanın" absurdluğu göz qabağındadır. Gürcü və yunan dillərində yazılmış Petritson monastırının tipikində böyük domestik Qriqol Bakurianisdze, bir qayda olaraq inkar olunan bir sıra gürcü orijinal mənbələrindən danışmayaraq özü haqqında belə qeyd edir: "Biz gürcülər mübariz xalqıq, hərbi baxımdan tərbiyə olunan xalqıq və bir xalq olaraq ağır həyata öyrəşmişik". Məgər bu halda "gürcülər" etnoniminin kontekstindən (yunan mətnində "iberlər") məhz konfessional mənada deyil, etnik mənada istifadə olunduğundan şübhə etmək olar? Bu ifadədən yalnız biri, digər arqumentlərdən danışmadan, gözlənilməz bir şəxs üçün böyük domestikin etnik mənsubiyyəti məsələsini həll edir.

Müasir erməni tarixçilərinin məqalələrini oxuyarkən belə təsəvvür yaranır ki, gürcülər, ümumiyyətlə, mövcud olmamışdır, real olaraq, yalnız - adi ermənilər və qeyri-adi ermənilər - xalkidonitlər var idi ki, onları da nədənsə gürcülər, yəni yunan dilində "iberlər", erməni dilində isə "vratsik" adlandırırdılar. Həqiqətən, müasir erməni tarixşünaslığına əsaslanan belə bir "məhsuldar" düşüncə, bədnam klassik politoloq (özünü belə adlandırır) A. Miqranyan ilə gündəmə gəldi. O, televiziyaya verdiyi müsahibəsində "vəhşilik" adlandırdığı bu mövzuya, Gürcüstan ictimaiyyətinin əsl gürcü torpaqlarının - Abxaziya və Şida (daxili) Kartlinin Rusiya hakimiyyət orqanları tərəfindən ilhaq edilməsinə qarşı tamamilə təbii olan bir reaksiyasını "İzvestiyalar"da ağda qara rəngdə olaraq yazır (16.10.2006): "Zaqafqaziya məsələlərində az və ya çox məlumatlı olan bütün mütəxəssislərə aydın şəkildə bəllidir ki, gürcü xalqı kimi, Gürcüstan dövləti də Rusiya imperiyasının sonra isə Sovet İttifaqının tərkibinə daxil olmazdan əvvəl tarixdə mövcud olmamışdır". Müasir erməni tarixçilərinin əsərlərində aparılan "konsepsiya"nın obyektiv nəticəsi budur.

"Çox və ya az məlumatlı olduğumuzu" qeyd edən klassik politoloq nəzərdən keçirməyə davam edək. Həmin yazıda o özünü müdrik göstərərək hiyləgərcəsinə qeyd edir: "Təşəkkür, bir fəziləti kimi, çox nadir hallarda insan münasibətlərində və xalqlar arasındakı münasibətlərdə baş verir. Nümunə üçün uzağa getmək lazım deyildir. Bir erməni kimi bu mənə (! - D.M.) yaxşı məlumdur".

"Vaxtilə ermənilər hakimiyyəti çar əsilli gürcü qonşuları ilə bölüşmüşlər. Erməni knyazlığının, daha sonra isə çar nəslindən olan Baqratilərin kiçik bir qolu Gürcüstanda hakim sülalə olmuşdur".

"Erməni knyazları və sərkərdələri orta əsr gürcü dövlətinin sərhədlərini genişləndirmişlər. Ermənilər Gürcüstan paytaxtını inşa etmişlər və indiyədək, demək olar ki, getdikcə daha az və ya az əhəmiyyətli olan memarlıq abidələri Tiflisdə yaşayıb çalışan erməni tacirlərinin və sənayeçilərinin himayədarlığının nəticəsi olmuşdur (! - D.M.)".

"Mesrop Maştos - erməni əlifbasının yaradıcısı - qardaş gürcü xalqı üçün də əlifbanı yaratdı (! - D.M.). Ancaq heç bir gürcü mədəniyyət xadimi və ya siyasətçisi, yalnız tarixi ədalətin maraqları naminə qonşu xalqın Gürcüstan dövlətinin mədəniyyətinə, elminə, memarlığına verdiyi töhfələri heç vaxt qeyd etməmişlər. Ona görə də, nankorluq həm şəxslərin, həm də xalqların xarakterik xüsusiyyətidir".

**Vahid Ömərov**
**Fəlsəfə üzrə fəlsəfə doktoru,dosent**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

Son səhifə

21 may

## Tuba Büyüküstün gənc qızları tənqid etdi



***"Özümə çox baxan biri deyiləm. Baxmaq istəyirəm, baxımlı xanımlara hörmət edirəm, heyranam, amma bu məsələdə çox uğurlu deyiləm".***

Bu sözləri tanınmış aktrisa Tuba Büyüküstün instaqramda canlı yayımda izləyiciləri ilə söhbət edərkən deyib. Karantin günlərini qızları ilə birlikdə keçirən ulduz sosial şəbəkədə tez-tez canlı yayıma qoşularaq izləyiciləri ilə ünsiyyət qurur. Bu dəfə isə aktrisa gözəllik və estetik cərrahiyyə mövzularına toxunub. Kino ulduzu son illərdə gənc qızların bir-birinə bənzəməyə çalışmaq cəhdlərini tənqid edib.

"İynədən qorxuram. Təbii üsullarla həll etmək mümkün olmadığı halda əməliyyata getməlisiniz. Gənclər sahib olduğu təbii gözəlliyi çox tez xərcləyir. Gənc insanların üzü-gözü və dərisi zatən gözəldir. Hesab edirəm ki, onlarla oynamaq, əlinizdə olanı xərcləmək deməkdir. Bir məsələ xüsusilə diqqətimi çəkir, öz üzləri ilə tanış olmaq və ona uyğun dəyişiklik etmək əvəzinə, hamı bir-birinə bənzəməyə başladı. Bu estetik müdaxilələrin xoşagəlməyən tərəfidir", - deyə Tuba Büyüküstün qeyd edib.

## Ronaldo 8 milyona torpaq aldı



"Yuventus"un futbolçusu Kriştiano Ronaldo Vətəni Portuqaliyada yeni torpaq sahəsi alıb. Qol.az "Vidas.pt"a istinadən xəbər verir ki, 35 yaşlı hücumçu Lissabon şəhərinin Riveyra bölgəsindəki əraziyə 8 milyon avro ödəyib. Təxminən 10 min kvadratmetr sahədə malikanənin inşası üçün işlərə başlanılıb. Ancaq Ronaldonun hələlik orada yaşamaq fikrində olmadığı bildirilib. Qeyd edək ki, Riveyra Portuqaliyada varlıların yaşadığı ərazidir.

## Elektron kitabların oxunması gözdə kompüter sindromu yaradır



Müasir dövrdə oxucuların çoxu, xüsusilə gənclər kitabları daha çox elektron formada oxuyur. Çap texnikası ilə dərc edilən kitablara müraciət edənlər kifayət qədər olsa da, elektron kitablardan istifadə edənlər də az deyil. Elektron kitablardan istifadə asan görünsə də, əks təsirləri də var. Həkim-oftalmoloq Gültəkin Məmmədova AZƏRTAC-a deyib: "Elektron kitabların istifadəsi gözdə kompüter sindromu yaranmasına səbəb olur. Bu, daha çox özünü gözdə qızartı, batma, yanma, sulanma şəklində göstərir. Həmin sindromdan qorunmaq üçün arada fasilələr vermək lazımdır. Gün ərzində çoxlu su içmək toxumanın nəmlənməsinə, quru göz sindromunun qarşısının alınmasına səbəb olur. Otaqdakı hava şəraitinin nəmişliyinə də fikir vermək lazımdır. Bunun üçün xüsusi hava nəmləndiricilərindən istifadə olunması daha məsləhətdir".

## "Dünya müharibələri də futbolu dəyişdirməyib"



"Düşünmürəm ki, nəsə əbədi dəyişsin. Bu, yeni bir təcrübədir və bu qanlı virusdan qurtulduğumuz zaman hər şey öz ətrafına dönəcək". Bu sözləri UEFA-nın prezidenti Aleksandr Çeferin "The Guardian"a açıqlamasında deyib. Pandemiyanın futbola mümkün təsiri haqda danışan sloveniyalı funksioner bununla bağlı narahatlığa gərək olmadığını bildirib. O, hətta dünya müharibələrinin belə, futbolu dəyişdirə bilmədəyini qeyd edib:

"Birinci və ya ikinci dünya müharibəsindən sonra futbol dəyişməyib və virusa görə də dəyişməyəcək. İnsanlar deyirlər ki, dünya koronavirusdan sonra əvvəlki kimi olmayacaq. Bu həqiqət ola bilər, amma mənim fikrim budur: niyə bu virusdan sonra dünyanın düzələcəyini düşünməyək? Niyə daha ağıllı olacağımızı düşünməyək və ya təbiətimizə nə qədər həssas olduğumuzu başa düşməyək? Beləliklə, həmişə öyrənilməli olan dərslər var".

## Gün ərzində nə qədər meyvə qəbul etmək məsləhətdir?

Mövsümi meyvələr orqanizm üçün çox faydalıdır. Məsələn, alça qida lifləri ilə zəngindir, tərkibində A, C və K vitaminləri var. Maqnezium və kaliumla zəngin olan üzüm isə B1 və B2 vitaminləri deposudur. Həmin meyvələrin tərkibindəki mikroelementlər orqanizmin tələbatının xeyli hissəsini ödəyir. Azərbaycan Tibb Universitetinin həkim-diyetoloqu Leyla Zülfüqarlı AZƏRTAC-a bildirib ki, almanın tərkibində ən çox üstünlük təşkil edən dəmir elementidir. Onun dediyinə görə, sitrus meyvələrinin tərkibi isə C vitamini zəngin olduğuna görə yazda onların yeyilməsi məsləhətdir. Yaz mövsümü qrip mövsümü sayılır, C vitamini isə qripə qarşı immuniteti gücləndirir.



Mövsümü meyvələr bir sıra xəstəliklərin yaranmasının qarşısını alır. Məsələn, çiyələk qan azlığı, oynaq ağrılarını aradan qaldırılması, alça qan dövranının yaxşılaşması, gilas diabetik riskin aşağı salınması üçün istifadə oluna bilər.

Həkim-diyetoloq deyib: "Tərkibindəki qida lifləri günlük qida maddələrinə olan 30 milliqramlıq ehtiyacı ödəyir. C vitamini orqanizmdə depolanmır və giləmeyvələrlə qidalananda orqanizmin həmin vitaminə olan tələbatı ödənilir. Məsələn, alça turş giləmeyvə olsa da, turşuluğu çoxaltmır və ödqovucu təsir göstərir, qan dövranını yaxşılaşdırır". Mütəxəssislər gün ərzində 150-400 qram meyvə qəbulunu tövsiyə edirlər. Həddən artıq meyvə yemək mədə turşuluğunu artıra və bəzi problemlərə səbəb ola bilər.

## Avtomobil qaçıran şəxs mağazadan da oğurluq etdi...



"VAZ-2107" markalı avtomobili qaçırmaqda şübhəli bilinən Bakı şəhər sakini H.Məmmədov saxlanılıb. Daxili İşlər Nazirliyindən SİA-ya verilən xəbərə görə, Sabunçu RPİ 12-ci PŞ əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində mayın 8-də K.Qarayevin "VAZ-2107" markalı avtomobilini qaçırmaqda şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş H.Məmmədov saxlanılıb. Ətrafında aparılmış tədbirlərlə onun mayın 14-də rayon ərazisindəki mağazaların birindən 2700 manat dəyərində ərzaq məhsulları oğurlaması da müəyyən edilib.

*Baş redaktor:*
Bəhruz Quliyev
*Baş redaktorun müavinləri:*
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600